**“PARA” BOKT ASC**

**31 dekabr 2023-cü il tarixində bitən il üzrə**

**Beynəlxalq Maliyyə Hesabatları Standartlarına uyğun**
**Maliyyə Hesabatları və Müstəqil Auditorun Rəyi**

**MÜNDƏRİCAT**
**31 DEKABR 2023-CÜ İL TARİXİNDƏ BİTƏN İL ÜZRƏ**

**Səhifə**


Maliyyə hesabatlarının hazırlanması və təsdiq edilməsi ilə bağlı rəhbərliyin bəyanatı
Müstəqil Auditorun hesabatı

Mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabat....................4
Maliyyə vəziyyəti haqqında hesabat....................5
Kapitalda dəyişikliklər haqqında hesabat....................6
Pul vəsaitlərinin hərəkəti haqqında hesabat....................7
Maliyyə hesabatları üzrə qeydlər....................8-67

**MALİYYƏ HESABATLARININ HAZIRLANMASI VƏ TƏSDİQ EDİLMƏSİ İLƏ BAĞLI RƏHBƏRLİYİN MƏSULİYYƏTİNİN BƏYANI**
**31 DEKABR 2023-CÜ İL TARİXİNDƏ BİTƏN İL ÜZRƏ**

Bu bəyannamə "Para" Bank olmayan Kredit Təşkilatı Açıq Səhmdar Cəmiyyətinin (bundan sonra "Təşkilat") maliyyə hesabatları ilə bağlı Təşkilat rəhbərliyinin və müstəqil auditorların göstərilən məsuliyyətlərini fərqləndirmək məqsədi ilə hazırlanmışdır.

Rəhbərlik, 31 dekabr 2023-cü il tarixində başa çatmış il üzrə Təşkilatın maliyyə vəziyyətini, əməliyyat nəticələrini, pul vəsaitlərinin hərəkəti və kapitalda dəyişiklikləri əks etdirən Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına ("MHBS") uyğun maliyyə hesabatlarının düzgün hazırlanması üçün məsuliyyət daşıyır.

Maliyyə hesabatlarının hazırlanması zamanı rəhbərlik aşağıda göstərilənlər üzrə məsuliyyət daşıyır:

- Uyğun mühasibat prinsiplərinin seçilməsi və mütəmadi olaraq tətbiq edilməsi;
- Məntiqli və məqsədəuyğun təxminlərin və qərarların qəbul edilməsi;
- Maliyyə hesabatlarının MHBS-a müvafiq hazırlanması və ya əgər hər hansı bir kənarlaşma varsa onun maliyyə hesabatlarında bəyan edilməsi və izahı;
- Yaxın gələcəkdə Təşkilat işini normal şərtlər altında davam etdirdiyi halda, hesabat tarixinə maliyyə hesabatlarının daimilik prinsipi əsasında hazırlanması.

Rəhbərlik, həmçinin aşağıdakı məsələlər üzrə məsuliyyət daşıyır:

- Təşkilat daxilində səmərəli və keyfiyyətli daxili nəzarət sisteminin işlənib hazırlanması, qurulması və möhkəmləndirilməsi;
- Təşkilatın maliyyə hesabatlarının MHBS-na uyğun olaraq düzgün hazırlanması və Təşkilatın maliyyə vəziyyətini istənilən zaman düzgün əks etdirən mühasibat sisteminin təşkil edilməsi;
- Yerli mühasibat sisteminin qanunvericilik və Azərbaycan Respublikasının mühasibat standartlarına uyğun olaraq təşkil edilməsi;
- Mümkün imkanlardan istifadə edərək Təşkilatın aktivlərinin mühafizə edilməsinin təşkil olunması; və
- Saxtakarlıq, yanlışlıq və digər qanuna uyğunsuzluq hallarının müəyyən edilməsi və qarşısının alınması.

31 dekabr 2023-cü il tarixində başa çatmış il üzrə maliyyə hesabatları 29 mart 2024-cü il tarixində Təşkilatın İdarə Heyəti tərəfindən təsdiq edilmişdir.

İdarə Heyəti adından:

| | |
|---|---|
| Elnur Quliyev<br>İdarə Heyəti sədri | Nigar Mehdiyeva<br>Baş Mühasib |
| 29 mart 2024-cü il<br>Bakı, Azərbaycan Respublikası | 29 mart 2024-cü il<br>Bakı, Azərbaycan Respublikası |

## MÜSTƏQİL AUDİTORUN HESABATI

"Para" BOKT ASC-nin Səhmdarlarına və İdarə heyətinə:

**Rəy**

Biz "Para" BOKT Açıq Səhmdar Cəmiyyətinin ("Təşkilat") 31 dekabr 2023-cü il tarixinə təqdim edilən maliyyə vəziyyəti haqqında hesabatın və həmin tarixdə bitən il üzrə mənfəət və ya zərər və digər məcmu gəlirlər haqqında hesabatın, kapitalda dəyişikliklər haqqında hesabatın və pul vəsaitlərinin hərəkəti haqqında hesabatın, eləcə də əsas uçot siyasətinin və digər izahedici məlumatların xülasəsindən ibarət olan maliyyə hesabatlarının audit yoxlamasını apardıq.

Bizim rəyimizcə, hazırkı maliyyə hesabatları Təşkilatın 31 dekabr 2023-cü il tarixinə maliyyə vəziyyətini və həmin tarixdə bitən il üzrə maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini bütün əhəmiyyətli aspektlər baxımından audit zamanı edilmiş dəyişiklik və düzəlişlərdən sonra müəssisənin həmin dəyişiklikləri tətbiq etdiyi halda Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq düzgün əks etdirir.

**Rəyin bildirilməsi üçün əsas**

Biz auditi Beynəlxalq Audit Standartlarına uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyət rəyimizin *"Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti"* bölməsində əks etdirilir. Biz Mühasiblər üçün Beynəlxalq Etika Standartları Şurasının dərc etdiyi Peşəkar Mühasiblərin Etika Məcəlləsinə uyğun olaraq Təşkilatdan asılı olmadan müstəqil şəkildə fəaliyyət göstəririk.

Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutu auditor rəyinin bildirilməsi üçün yetərli və müvafiq əsası təmin edir.

**Fəaliyyətin Fasiləsizliyi**

***Əhəmiyyətli qeyri-müəyyənliklə bağlı açıqlama***

Təşkilatın maliyyə hesabatlarında Qeyd 3-ü diqqətinizə çatdırmaq istəyirik. Həmin qeydə əsasən, Təşkilat 31 dekabr 2023-cü il tarixində tamamlanan il üzrə 1,042 min AZN zərərə uğramışdır. Həmin tarixə Təşkilatın öhdəlikləri aktivlərindən 17,935 min AZN çox olmuşdur. Bununla yanaşı maliyyə aktivləri və öhdəliklərinin müqavilə üzrə ödəniş tarixlərinə əsasən, Təşkilatın 31 dekabr 2023-cü il tarixinindən sonrakı on iki aylıq dövrdə 14,254 min AZN məcmu likvidlik çatışmazlığı ilə üzləşməsi gözlənilir.

***Hesabatların fəaliyyətin fasiləsizliyi prinsipi əsasında hazırlanması***

Yuxarıda müəyyən edilmiş əhəmiyyətli qeyri-müəyyənlik, hesabatların fəaliyyətin fasiləsizliyi prinsipi əsasında hazırlanmasının uyğunsuz olduğunu ifadə etmir. Təşkilatın hazırkı maliyyə hesabatları fəaliyyətin fasiləsizliyi prinsipi əsasında hazırlanmışdır. Rəhbərliyin Təşkilatı ləğv etmək və ya onun fəaliyyətini dayandırmaq istəyi yaxud bundan başqa hər hansı digər real alternativi olmadığı hallar istisna olmaqla, hesabatların fəaliyyətin fasiləsizliyi prinsipi əsasında hazırlanması uyğun hesab olunur. Aparılan maliyyə hesabatlarının auditinin bir hissəsi olaraq, biz, rəhbərliyin Qeyd 3-də təsvir olunan likvidlik çatışmamazlığını aradan qaldırılması halında Təşkilatın fəaliyyətin fasiləsizliyi prinsipinə əsasən maliyyə hesabatlarının hazırlanmasının uyğun olduğu nəticəsinə gəldik.

**Maliyyə hesabatlarına görə rəhbərliyin və korporativ idarəetmə üzrə cavabdeh olan şəxslərin məsuliyyəti**

Rəhbərlik hazırkı maliyyə hesabatlarının Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq hazırlanması və düzgün təqdim edilməsi, eləcə də fırıldaqçılıq və yaxud səhv nəticəsində yaranmasından asılı olmayaraq, əhəmiyyətli təhriflər olmayan maliyyə hesabatlarının hazırlanması üçün rəhbərliyin zəruri hesab etdiyi daxili nəzarət sisteminə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarının hazırlanması zamanı rəhbərlik, Təşkilatı ləğv etmək və ya onun fəaliyyətini dayandırmaq istəyi yaxud bundan başqa hər hansı digər real alternativi olmadığı hallar istisna olmaqla, Təşkilatın öz fəaliyyətini fasiləsiz davam etdirmək qabiliyyətinin qiymətləndirilməsi, uyğun olduqda fəaliyyətin fasiləsizliyi ilə bağlı məlumatların açıqlanması və fəaliyyətin fasiləsizliyi prinsipinə əsasən maliyyə hesabatlarının hazırlanmasına görə məsuliyyət daşıyır.

Korporativ idarəetmə üzrə cavabdeh olan şəxslər Təşkilatın maliyyə hesabatlarının hazırlanması prosesinə nəzarət üçün məsuliyyət daşıyırlar.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Bizim məqsədimiz saxtakarlıq yaxud səhv nəticəsində yaranmasından asılı olmayaraq maliyyə hesabatlarında əhəmiyyətli səhvlərə yol verilmədiyinə dair kifayət qədər əminlik əldə etmək və rəyimizi özündə əks etdirən auditor hesabatının hazırlanmasından ibarətdir. Kifayət qədər əminlik dedikdə yüksək əminlik səviyyəsi nəzərdə tutulur. Lakin belə əminlik səviyyəsi Beynəlxalq Audit Standartlarına uyğun auditin aparılması zamanı bütün əhəmiyyətli təhriflərin aşkar olunacağına zəmanət vermir. Fırıldaqçılıq və ya səhv nəticəsində yarana biləcək təhriflər o halda əhəmiyyətli hesab edilir ki, onlar ayrı-ayrılıqda və ya bütövlükdə maliyyə hesabatları əsasında istifadəçilərin qəbul etdikləri iqtisadi qərarlara təsir göstərə bilsin.

Beynəlxalq Audit Standartlarına uyğun aparılmış audit çərçivəsində biz auditin aparıldığı bütün müddət ərzində peşəkar mülahizələr irəli sürür və peşəkar skeptisizmi saxlayırıq. Bundan əlavə biz:

- Saxtakarlıq yaxud səhv nəticəsində yaranmasından asılı olmayaraq maliyyə hesabatlarının əhəmiyyətli dərəcədə təhrif edilməsi risklərini müəyyən edir və qiymətləndirir, bu risklərə qarşı audit prosedurları işləyib hazırlayır və tətbiq edir; rəyimizin bildirilməsi üçün yetərli və müvafiq əsası təmin edən audit sübutu əldə edirik. Fırıldaqçılıq nəticəsində yaranan əhəmiyyətli təhriflərin aşkar edilməməsi riski səhv nəticəsində yaranan əhəmiyyətli təhriflərin aşkar edilməməsi riskindən yüksəkdir. Belə ki, fırıldaqçılıq gizli sövdələşmə, saxtakarlıq, məlumatların bilərəkdən göstərilməməsi, təhrif edilmiş şəkildə təqdim edilməsi və ya daxili nəzarət sistemində sui-istifadə hallarını nəzərdə tutur.
- Təşkilatın daxili nəzarət sisteminin effektivliyi barədə rəy bildirmək üçün deyil, şəraitə uyğun audit prosedurlarının işlənib hazırlanması məqsədilə audit üçün əhəmiyyətli olan daxil nəzarət sistemi üzrə məlumat əldə edirik.
- Tətbiq edilən uçot siyasətlərinin uyğunluğunu, uçot təxminlərinin və rəhbərlik tərəfindən hazırlanmış müvafiq açıqlamaların əsaslı olduğunu qiymətləndiririk.
- Fəaliyyətin fasiləsizliyi ilə bağlı rəhbərliyin mülahizələrinin uyğunluğu və əldə edilmiş audit sübutlarına əsasən Təşkilatın fasiləsiz fəaliyyət göstərmək qabiliyyəti ilə bağlı əhəmiyyətli dərəcədə şübhə yarada biləcək hadisə və şərait üzrə qeyri-müəyyənliyin mövcud olub-olmamasına dair fikir bildiririk. Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğu barədə nəticəyə gəldikdə, biz auditor rəyimizdə diqqəti maliyyə hesabatlarındakı müvafiq açıqlamalara cəlb etməli, belə açıqlamalar yetərli olmadıqda, rəyimizi dəyişdirməliyik. Nəticələrimiz auditor hesabatının tarixinədək əldə edilmiş audit sübutlarına əsaslanır. Lakin gələcək hadisə və şəraitlər Təşkilatın fasiləsiz fəaliyyət göstərmək qabiliyyətini dayandırmasına səbəb ola bilər.
- Maliyyə hesabatlarının ümumi təqdimatını, strukturunu və məzmununu, o cümlədən açıqlamaları və maliyyə hesabatlarında mövcud əməliyyatlar və hadisələrin düzgün təqdim edilməsini qiymətləndiririk.

Biz digər məsələlərlə yanaşı, planlaşdırılan audit prosedurlarının həcmi və vaxtı, əhəmiyyətli audit nəticələri, eləcə də audit prosesində müəyyən etdiyimiz daxili nəzarət sistemindəki əhəmiyyətli çatışmazlıqlar barədə məlumat təqdim edirik.

29 mart 2024-cü il
Bakı, Azərbaycan Respublikası

Prime Audit and Consulting
member firm of Praxity

AZƏRBAYCAN RESPUBLİKASI AZERBAIJAN REPUBLIC PRIME PRIME AUDIT AND CONSULTING PRIME AUDIT AND CONSULTING

**"PARA" BOKT ASC**
**MƏNFƏƏT VƏ YA ZƏRƏR VƏ DİGƏR MƏCMU GƏLİR HAQQINDA HESABAT**
**31 DEKABR 2023-CÜ İL TARİXİNDƏ BİTƏN İL ÜZRƏ**
*(Min Azərbaycan Manatı ilə)*

| | Qeyd | 31 dekabr 2023-cü il tarixində bitən il üzrə | 31 dekabr 2022-ci il tarixində bitən il üzrə |
|---|---|---|---|
| Faiz gəlirləri | 6 | 5,207 | 6,109 |
| Faiz xərcləri | 6 | (1,157) | (1,159) |
| **Xalis faiz gəlirləri** | | **4,051** | **4,950** |
| Haqq və komissiya gəlirləri | 7 | - | 4 |
| Haqq və komissiya xərcləri | 7 | (8) | (9) |
| **Xalis haqq və komissiya xərcləri** | | **(8)** | **(5)** |
| Xarici valyuta ilə əməliyyatlar üzrə xalis (zərər) | 9 | (7) | (8) |
| Məzənnə fərqləri üzrə xalis gəlir/(zərər) | 9 | 24 | (40) |
| Digər əməliyyat gəlirləri | 10 | 11 | 334 |
| **Əməliyyat gəlirləri** | | **4,071** | **5,231** |
| Dəyərsizləşmə üzrə zərərlər | 8 | (3,829) | (5,652) |
| Digər əməliyyat xərcləri | | - | - |
| İşçi heyəti üzrə xərclər | 11 | (282) | (347) |
| Sair ümumi inzibati xərclər | 12 | (1,002) | (1,057) |
| **Mənfəət vergisindən əvvəlki (zərər)/gəlir** | | **(1,042)** | **(1,825)** |
| Mənfəət vergisi (xərci)/gəliri | 13 | - | - |
| **İL ÜZRƏ CƏMİ (ZƏRƏR)/MƏNFƏƏT VƏ DİGƏR MƏCMU GƏLİR** | | **(1,042)** | **(1,825)** |
| **Hər səhm üzrə (zərər)/mənfəət** | | | |
| Əsas və azaldılmış (AZN) | 14 | 0.77 | (4.59) |

İdarə Heyəti adından:

Elnur Quliyev
İdarə Heyəti sədri

29 mart 2024-cü il
Bakı, Azərbaycan Respublikası

Nigar Mehdiyeva
Baş Mühasib

29 mart 2024-cü il
Bakı, Azərbaycan Respublikası

**"PARA" BOKT ASC**
**MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA HESABAT**
**31 DEKABR 2023-CÜ İL TARİXİNƏ**
*(Min Azərbaycan Manatı ilə)*

| | Qeyd | 31 dekabr 2023-cü il | 31 dekabr 2022-ci il |
|---|---|---|---|
| **AKTİVLƏR** | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 15 | 64 | 122 |
| İnvestisiya qiymətli kağızları | 16 | 584 | 584 |
| Banklara verilmiş kreditlər | 17 | - | - |
| Müştərilərə verilmiş kreditlər | 18 | 12,134 | 14,787 |
| Satılabilən girov əmlakları | 18 | 1,356 | 1,452 |
| Bina, avadanlıq və qeyri-maddi aktivlər | 19 | 6,499 | 7,214 |
| Vəsaitin istifadə hüququ | 26 | 46 | 87 |
| Təxirə salınmış vergi aktivləri | 13 | 266 | 266 |
| Digər aktivlər | 20 | 159 | 136 |
| **Cəmi aktivlər** | | **21,109** | **24,648** |
| **ÖHDƏLİKLƏR VƏ KAPİTAL** | | | |
| **ÖHDƏLİKLƏR:** | | | |
| Banklara və digər maliyyə institutlarına ödəniləcək vəsaitlər | 21 | 24,109 | 27,558 |
| Müştərilərin cari hesabları və depozitləri | 22 | 173 | 5 |
| Subordinasiya borc öhdəlikləri | 23 | 24 | 24 |
| İmtiyazlı səhmlər | 24 | 9,621 | 9,621 |
| İcarə öhdəlikləri | 26 | 45 | 85 |
| Digər öhdəliklər | 25 | 5,072 | 4,248 |
| **Cəmi öhdəliklər** | | **39,044** | **41,541** |
| **KAPİTAL** | | | |
| Nizamnamə kapitalı | 27 | 29,266 | 29,266 |
| Binalara üzrə yenidən qiymətləndirmə ehtiyatı | | 3,845 | 3,845 |
| Yığılmış zərər | | (51,047) | (50,005) |
| **Cəmi kapital** | | **(17,935)** | **(16,893)** |
| **CƏMİ ÖHDƏLİKLƏR VƏ KAPİTAL** | | **21,109** | **24,648** |

İdarə Heyəti adından:

Elnur Quliyev
İdarə Heyəti sədri

29 mart 2024-cü il
Bakı, Azərbaycan Respublikası

Nigar Mehdiyeva
Baş Mühasib

29 mart 2024-cü il
Bakı, Azərbaycan Respublikası

**"PARA" BOKT ASC**
**KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA HESABAT**
**31 DEKABR 2023-CÜ İL TARİXİNDƏ BİTƏN İL ÜZRƏ**
*(Min Azərbaycan Manatı ilə)*

| | Nizamnamə kapitalı | Yığılmış zərər | Binalar üzrə yenidən qiymətləndirmə | Cəmi Kapital |
|---|---|---|---|---|
| **31 dekabr 2018-ci il** | **29,266** | **(31,528)** | **3,845** | **1,583** |
| İl üzrə cəmi məcmu zərər | - | 480 | - | 480 |
| **31 dekabr 2019-cu il** | **29,266** | **(31,048)** | **3,845** | **2,063** |
| İl üzrə cəmi məcmu zərər | - | (11,718) | - | (11,718) |
| **31 dekabr 2020-ci il** | **29,266** | **(42,766)** | **3,845** | **(9,655)** |
| İl üzrə cəmi məcmu zərər | - | (5,414) | - | (5,414) |
| **31 dekabr 2021-ci il** | **29,266** | **(48,180)** | **3,845** | **(15,069)** |
| İl üzrə cəmi məcmu zərər | - | (1,825) | - | (1,825) |
| **31 dekabr 2022-ci il** | **29,266** | **(50,005)** | **3,845** | **(16,893)** |
| İl üzrə cəmi məcmu zərər | - | (1,042) | - | (1,042) |
| **31 dekabr 2023-cü il** | **29,266** | **(51,047)** | **3,845** | **(17,935)** |

İdarə Heyəti adından:

Elnur Quliyev
İdarə Heyəti sədri

29 mart 2024-cü il
Bakı, Azərbaycan Respublikası

Nigar Mehdiyeva
Baş Mühasib

29 mart 2024-cü il
Bakı, Azərbaycan Respublikası

8-67-ci səhifələrdə verilmiş qeydlər maliyyə hesabatlarının tərkib hissəsini təşkil edir.

**"PARA" BOKT ASC**
**PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT**
**31 DEKABR 2023-CÜ İL TARİXİNDƏ BİTƏN İL ÜZRƏ**
*(Min Azərbaycan Manatı ilə)*

| | 31 dekabr 2023-cü il tarixində bitən il üzrə | 31 dekabr 2022-ci il tarixində bitən il üzrə |
|---|---|---|
| **ƏMƏLİYYAT FƏALİYYƏTİ İLƏ BAĞLI OLAN PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ:** | | |
| Alınmış faizlər | 2,433 | 3,726 |
| Ödənilmiş faizlər | (31) | (67) |
| Alınmış haqq və komissiyalar | - | 4 |
| Ödənilmiş haqq və komissiyalar | (8) | (9) |
| Xarici valyuta mübadiləsindən xalis gəlirlər | 18 | (48) |
| Alınmış digər əməliyyat gəlirləri | 16 | 45 |
| İşçi heyəti üzrə xərclər | (254) | (276) |
| Ödənilmiş sair ümumi inzibati xərclər | (281) | (320) |
| **Əməliyyat aktivlərində azalma** | | |
| Müştərilərə verilmiş kreditlər | 440 | 3,986 |
| Digər aktivlər | (23) | 67 |
| **Əməliyyat öhdəliklərində (azalma)/artım** | | |
| Digər öhdəliklər | 824 | 200 |
| **Vergilərin ödənilməsindən əvvəl əməliyyat fəaliyyətindən daxil olan xalis pul vəsaitləri** | **3,134** | **7,309** |
| Ödənilmiş mənfəət vergisi | - | - |
| **Əməliyyat fəaliyyətindən daxil olan xalis pul vəsaitləri** | **3,134** | **7,309** |
| **İNVESTİSİYA FƏALİYYƏTİ İLƏ BAĞLI OLAN PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ:** | | |
| Satış üçün saxlanılan aktivlərə investisiyalar | 96 | (271) |
| Əmlak, avadanlıqlar və qeyri-maddi aktivlərin satılması | (6) | (16) |
| **İnvestisiya fəaliyyətindən (yönəlmiş)/daxil olan xalis pul vəsaitləri** | **90** | **(287)** |
| **MALİYYƏLƏŞDİRMƏ FƏALİYYƏTİ İLƏ BAĞLI OLAN PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ:** | | |
| Subordinasiya borc öhdəlikləri üzrə daxilolmalar | - | - |
| Subordinasiya borc öhdəliklərinin ödənilməsi | - | (7) |
| Müştərilərin cari hesabları və depozitləri | 168 | 2 |
| Banklara və digər maliyyə institutlarına ödənilən vəsaitlər | (3,449) | (6,964) |
| **Maliyyələşdirmə fəaliyyətinə yönəlmiş xalis pul vəsaitləri** | **(3,280)** | **(6,969)** |
| Məzənnə fərqlərinin pul və pul vəsaitlərinə təsiri | - | - |
| **PUL VƏ PUL VƏSAİTLƏRİNDƏ XALİS (AZALMA)/ ARTIM** | **(57)** | **53** |
| **PUL VƏ PUL VƏSAİTLƏRİ, *ilin əvvəlinə*** | **122** | **68** |
| **PUL VƏ PUL VƏSAİTLƏRİ, *ilin sonuna*** | **64** | **122** |

İdarə Heyəti adından:

Elnur Quliyev
İdarə Heyəti sədri

29 mart 2024-cü il
Bakı, Azərbaycan Respublikası

Nigar Mehdiyeva
Baş Mühasib

29 mart 2024-cü il
Bakı, Azərbaycan Respublikası

## 1. Giriş

**Təşkilat və onun əsas fəaliyyəti**

"Parabank" Açıq Səhmdar Cəmiyyətin (bundan sonra "Təşkilat") 31 dekabr 1991-ci il tarixində Azərbaycan Respublikasının qanunvericiliyi əsasında məhdud məsuliyyətli cəmiyyət kimi təsis edilmişdir. Təşkilat 19 yanvar 1993-cü il tarixində, səhmdar kommersiya bankı kimi yenidən qeydiyyatdan keçmişdir. Təşkilat Azərbaycan Respublikasında kommersiya bank xidmətləri göstərmək məqsədi ilə qeydiyyatdan keçmiş və Azərbaycan Respublikasının Mərkəzi Bankı ("ARMB") tərəfindən 23 yanvar 2001-ci il tarixində verilmiş 02-10/41 saylı lisenziya ilə fəaliyyət göstərir. ARMB tərəfindən 6 avqust 2002-ci il tarixində 19 saylı lisenziya verilmişdir ki, bu lisenziya Təşkilata plastik kartlar buraxmaq və onlarla əməliyyatlar aparmaq imkanı vermişdir. 14 mart 2008-ci il tarixində Təşkilat Azərbaycan Respublikası Ədliyyə Nazirliyində "Parabank" Açıq Səhmdar Cəmiyyəti kimi yenidən qeydiyyatdan keçmişdir.10 may 2008-ci il tarixində ARMB valyuta notları ilə idxal və ixrac əməliyyatları aparmaq üçün 30 saylı lisenziya vermişdir. Əsas fəaliyyəti kommersiya fəaliyyətlərindən, qiymətli kağızların, xarici valyutaların alqı-satqısından, kreditin və zəmanətlərin verilməsindən ibarət olmuşdur.
21 iyul 2016-cı il tarixində Maliyyə Bazarlarına Nəzarət Palatasının Direktorlar Şurasının qərarı ilə "Parabank" Açıq Səhmdar Cəmiyyətin lisenziyası ləğv olunmuşdur və Azərbaycan Respublikası Əmanətlərin Sığortalanması Fondu məhkəmə qərarına əsasən Banka ləğvedici təyin olunmuşdur. Bankın lisenziyasının ləğvinə əsas səbəb kimi məcmu kapitalın minimum tələbinə əməl edilməməsi göstərilmişdir.
Əmanətlərin Sığortalanması haqqında Fond ilə bağlanmış müqaviləyə əsasən Təşkilatda sığorta hadisəsinin yaranması səbəbindən müqavilədən irəli gələn göstəricilər üzrə əmanətlərin geri ödənilməsi prosesi başlanılmışdır. Bu müqavilə əsasında 31 dekabr 2016-cı il tarixinə Fond tərəfindən ümumi məbləği 43,307 min AZN dəyərində olan sığortalı əmanətlər üzrə kompensasiya ödənilmiş və sığortalı əmanətlər üzrə əmanətçilərin tələbləri tam şəkildə təmin olunmuşdur. Təşkilatın Fond qarşısında öhdəliyini təsdiq edən müqavilə 17 mart 2017-ci il tarixində rəsmiləşdirilmişdir. Müqaviləyə əsasən tərəflər Fondun Təşkilat qarşısında tələblərinin 43,245,594 AZN təşkil etməsi və bu tələbin müqavilədə nəzərdə tutulan qrafik əsasında 4 il müddətinə ödənilməsi haqda razılığa gəlmişdir. Təşkilat tərəfindən tələbin tam şəkildə yerinə yetirilməsinin təminatı kimi Təşkilatın kredit portfelinə tələb hüquqları Fonda ötürülmüş, Fond isə kredit portfelinin idarə edilməsini istənilən vaxt geri götürmək hüququ ilə Təşkilata həvalə etmişdir. 27 dekabr 2021-ci il tarixində müqaviləyə əlavə və dəyişiklik edilməsi barədə razılaşma imzalanmışdır. 20 sentyabr 2021-ci il tarixində Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi Sahibkarlığın İnkişafı fondu ilə barışıq sazişi imzalanmışdır. Fondla bağladığı 25 aprel 2017-ci il tarixli "Azərbaycan Respublikasının Sahibkarlığa Kömək Milli Fondu ilə "PARA" Bank Olmayan Kredit Təşkilatı Açıq Səhmdar Cəmiyyəti arasında fondun vəsaitlərindən istifadə edilməsinin şərtləri haqqında" müqaviləyə və Bakı Apellyasiya Məhkəməsinin Kommersiya Kollegiyasının 26.11.2020-ci il tarixli, 2-2(103)-618/2020 saylı qətnaməsinə əsasən 01.09.2021-ci il tarixinə Fonda 8,834,854.74 AZN əsas kredit, 95,632.21 AZN faiz və 184,027.67 AZN cərimə borcunun olduğunu qəbul edir.
Təşkilatın Müşahidə Şurasının iclasında depozit hesabına sahib olan müştərilərinin müraciətlərinə əsasən, eləcə də, Təşkilatın fəaliyyətinin təkmilləşdirilməsi və maliyyə durumunun sağlamlaşdırılması məqsədilə əmanətlərin bir qisminin istiqraza transformasiya edilməsi haqqında qərar qəbul olunmuşdur.
02 dekabr 2016-cı il tarixində Azərbaycan Respublikası Vergilər Nazirliyi tərəfindən əvvəllər Parabank olan Təşkilatın adı dəyişdirilərək "Para" BOKT Açıq Səhmdar Cəmiyyəti kimi qeydiyyata alınmışdır. 30 mart 2017-ci il tarixində "Para" Bank Olmayan Kredit Təşkilatı Açıq Səhmdar Cəmiyyəti BKT-30 qeydiyyat nömrəsilə lisenziyaların mərkəzi reyestrinə daxil edilmişdir. Bu lisenziyanin alınması "Para" BOKT ASC-yə kreditlərin verilməsi, habelə "Bank olmayan kredit təşkilatları haqqında" Azərbaycan respublikası Qanununda nəzərdə tutulmuş digər fəaliyyət növləri ilə qanunvericiliyə müvafiq qaydada məşğul olmaq hüququ verir. Bununla yanaşı, "Para" BOKT ASC-nin girov əmanəti qəbul etmək hüququ vardır.

**Təşkilatın hüquqi ünvanı və fəaliyyət göstərdiyi ölkə**

Təşkilatın hüquqi ünvanı: Nəsimi rayonu, S.Vurğun küçəsi, ev 60, Bakı şəhəri, Azərbaycan Respublikası.

31 dekabr 2023-cü il tarixinə Təşkilatın Azərbaycan Respublikasında 18 filialı mövcud olmuşdur və bunların da 14-ü bölgələrin payına düşür (2022-ci il: 18 filial).

**Təşkilatın Səhmdarları**

31 dekabr 2023-cü il və 31 dekabr 2022-ci il tarixlərinə aşağıda göstərilən səhmdarlar Təşkilatın səhmlərinə sahib olmuşlar:

| | **31 dekabr 2023-cü il, %** | **31 dekabr 2022-ci il, %** |
|---|---|---|
| **Adi səhmdarlar** | | |
| Quliyev Eldar Elman | 21.00 | 21.00 |
| Quliyeva Alevtina | 17.00 | 17.00 |
| Hacıyeva Tamilla | 17.00 | 17.00 |
| Quliyev Vəli Eldar | 16.00 | 16.00 |
| Quliyev Elnur Eldar | 13.00 | 13.00 |
| Quliyev Fərman Eldar | 10.00 | 10.00 |
| Poladov Rasim İbrahim | 5.00 | 5.00 |
| Digər | 1.00 | 1.00 |
| **Cəmi adi səhmdarlar** | **100** | **100** |

| | **31 dekabr 2023-cü il, %** | **31 dekabr 2022-ci il, %** |
|---|---|---|
| **İmtiyazlı səhmdarlar** | | |
| Səfərov Əşrəf Səxavət | 26.00 | 26.00 |
| Səfərov Faiq Səxavət | 26.00 | 26.00 |
| Quliyeva Alevtina Vəli | 13.90 | 13.90 |
| Quliyev Eldar Elman | 10.90 | 10.90 |
| Səfərov İbrahim Səxavət | 7.80 | 7.80 |
| Səfərli Əvəz Səxavət | 7.80 | 7.80 |
| Quliyev Elnur Eldar | 5.20 | 5.20 |
| Digər | 2.40 | 2.40 |
| **Cəmi imtiyazlı səhmdarlar** | **100** | **100** |

## 2. Təşkilatin əməliyyat mühiti

***Azərbaycan Respublikası.*** Neft ixrac edən bir ölkə kimi və neftin dövlət büdcəsinin həcmi, eləcə də dəyəri etibarı ilə əsas paya sahib olduğu üçün Azərbaycan iqtisadiyyatı neftin dəyərindən əhəmiyyətli dərəcədə asılıdır. Bu səbəbdən sözügedən sahənin qiymətlərində yaranan fərqlər iqtisadiyyat üzərində böyük təsirə malikdir və neftin dəyərindəki kəskin dəyişikliklər valyuta dəyərdəndüşməsi, iqtisadiyyat və sənaye sahələrinin inkişafında ləngimələr, həmçinin pul vəsaitlərinin dövriyyəsində yaranan qeyri-sabitlik kimi bu və ya digər makro-iqtisadi faktorların mövcudluğuna gətirib çıxarır.

Şirkətin fəaliyyəti Azərbaycan Respublikasında həyata keçirilir. Şirkət inkişaf etməkdə olan bazarın xüsusiyyətlərini əks etdirən Azərbaycanın iqtisadi və maliyyə bazarları ilə qarşılıqlı fəaliyyət göstərir. Hüquq, vergi və tənzimləyici strukturlar daimi inkişafdadır, bununla belə mütəmadi olaraq yeni şərhlərə dəyişikliklərə məruz qalırlar, bu isə öz növbəsində digər hüquqi və maliyyə çətinlikləri ilə birlikdə Azərbaycanda fəaliyyət göstərən müəssisələrin üzləşdiyi problemləri daha da gücləndirir.

Azərbaycan iqtisadiyyatı həmçinin beynəlxalq enerji qiymətləri səviyyəsindən əhəmiyyətli dərəcədə asılıdır. Xam neftin qiyməti ilin birinci yarısında təchizat ilə bağlı çətinliklər səbəbindən artmış, lakin ilin ikinci yarısından etibarən mümkün iqtisadi tənəzzüllə bağlı çətinliklər tələbi azaltdığından neft qiymətləri ümumilikdə azalmışdır. "Brent" markalı neftin spot qiyməti 2022-ci ildə 1 barel üçün orta hesabla 100 ABŞ dolları təşkil etmişdir. Yüksək neft qiymətləri ölkənin iqtisadi inkişafını dəstəkləmişdir.

2015-2016-cı illərdə Azərbaycan manatının dəyərdən düşməsi biznes mühitində ciddi qeyri-müəyyənliklərə səbəb olmuşdur. Bu səbəbdən hökumət son 5 ildə sabit məzənnəni qorumaq üçün bütün lazımi tədbirləri həyata keçirmişdir. Nəticədə, neftin dünya bazarındakı qeyri-sabit qiyməti yerli valyutaya təsir göstərməmiş, eləcə də biznes mühitində qeyri-müəyyənlik artmamışdır. COVID-19 koronavirus pandemiyası 2020-ci ildə müəssisələrə əhəmiyyətli dərəcədə təsir göstərmişdir, lakin hökumətin uğurlu peyvənd kampaniyasından sonra müəssisələrin əksəriyyəti 2021-ci və 2022-ci ilin birinci yarısında davamlı olaraq öz normal fəaliyyətinə qayıtmışdılar. Qarabağ regionunda atəşkəs razılaşmasının davam etməsi biznes mühitini də müsbət təsir göstərir, çünki investisiyaların cəlb edilməsi və işğaldan azad edilmiş ərazilərin inkişafı üçün hökumət tərəfindən həyata keçirilən bir sıra layihələr mövcuddur.

ÜDM 2022-ci illə müqayisədə 2023-cü ildə 1.1% artaraq 123 milyard AZN-ə (72.4 milyard ABŞ dolları) çatmışdır. Dövlət Gömrük Komitəsinin statistikasına əsasən 2023-cü il ərzində Azərbaycan Respublikasının xarici ticarət dövriyyəsi təqribən 44.87 milyard ABŞ dollarına çatmışdır. Bu məbləğin 27,58 milyard ABŞ dolları ixrac olunan məhsulların, 17.29 milyard ABŞ dolları isə idxal olunan məhsulların payına düşmüşdür.

Hökumət Azərbaycan manatının sabitliyi ilə bağlı monetar siyasətini davam etdirmiş, həmçinin ayrılmış valyuta resursları Azərbaycan manatını sabitləşdirmişdir. Bu siyasət makroiqtisadi sabitliyin qorunması məqsədi ilə 2023-cü il ərzində davam etdirilmişdir. Azərbaycan Respublikasının Mərkəzi Bankı dövr ərzində yenidən maliyyələşdirmə dərəcəsini bir neçə dəfə dəyişdirmiş və sabit artımı ilə dərəcələr 8%-8.5% arasında olmuşdur.

2023-cü ilin dekabr ayında Azərbaycanda illik inflyasiya dərəcəsi 2.1% təşkil etmişdir. 2022-ci ilin dekabr ayında illik inflyasiya 14.4% təşkil etmişdir.

Beynəlxalq kredit reytinq agentlikləri mütəmadi olaraq Azərbaycan Respublikasının kredit reytinqini qiymətləndirirlər. "Fitch" və "S&P" Azərbaycan Respublikasının reytinqini "BB+" olaraq qiymətləndirmişdir. "Moody's Investors Service", ölkə üçün "Ba1" kredit reytinqini təyin etmişdir.

Yuxarıda təsvir olunan hadisələr və şərtlər təşkilatların əvvəllər qarşılaşmadığı müxtəlif qeyrimüəyyənliklər və risklər yaratmışdır. Yuxarıda göstərilən hadisələr Cəmiyyətin 31 dekabr 2023-cü il tarixində başa çatmış il və sonrakı dövrdə maliyyə nəticələrinə əhəmiyyətli təsir göstərmişdir.

## 3. Əsas Uçot Prinsiplərinin Xülasəsi

Maliyyə hesabatlarının hazırlanmasında qəbul edilən əsas uçot prinsipləri aşağıda qeyd edilmişdir. Bu prinsiplər istisna hallar göstərilmədiyi təqdirdə, bütün illərə davamlı olaraq tətbiq olunur.

### Hesabatların Tərtib Edilməsinin Əsas Prinsipləri

***Uyğunluq prinsipi***

Hazırki maliyyə hesabatları fəaliyyətin fasiləsizliyi və Beynəlxalq Mühasibat Uçotu Standartları Şurası tərəfindən hazırlanan 31 dekabr 2023-cü il tarixinə qüvvədə olan Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına ("MHBS") uyğun şəkildə hazırlanmışdır.

***Təqdimatın əsasları***

Maliyyə hesabatları aşağıda göstərilmiş mühasibat uçotu prinsiplərində başqa cür qeyd olunmayıbsa (məsələn, müəyyən maliyyə alətləri ədalətli dəyər prinsipi ilə ölçülür) tarixi dəyər prinsipinə əsasən hazırlanmışdır.

***Funksional və hesabat valyutası***

Təşkilatın funksional valyutası və bu maliyyə hesabatlarının tərtib olunduğu valyuta Azərbaycan Respublikasının milli valyutası olan Azərbaycan Manatıdır ("AZN").

### Maliyyə alətləri – ilkin tanınma

***Tanınmanın tarixi***

Maliyyə aktivləri və öhdəlikləri, müştərilərə verilən kreditlər və avanslar, o cümlədən müştəri hesabları istisna olmaqla maliyyə aktivləri və öhdəlikləri ilkin olaraq satış tarixində, yəni Təşkilat müqavilənin şərtlərinə əsasən tərəflərdən birinə çevrildiyi tarixdə tanınır. Buna müntəzəm satışlar daxildir: bazarda tənzimləmə və konvensiyalarla müəyyən olunmuş zaman çərçivəsində aktivlərin çatdırılması, tələb olunan maliyyə aktivlərinin alınması və satılması. Müştərilərə verilən kreditlər və avanslar bu vəsaitlər müştərinin hesabına köçürüldüyü zaman tanınır. Təşkilat müştərilərin balanslarını vəsaitlər Təşkilata köçürüldüyü zaman tanıyır.

***Maliyyə alətlərinin ilkin ölçülməsi***

Maliyyə alətlərinin ilkin tanınması zamanı təsnifləşdirilən alətlərin idarə olunması biznes planı və onların müqavilə şərtlərindən asılıdır. Maliyyə alətləri ilkin olaraq onların ədalətli dəyərində ölçülür, maliyyə aktivləri və maliyyə öhdəliklərinin mənfəət və ya zərər hesabına ədalətli dəyərlə qeyd olunması halından başqa digər əməliyyat məsrəfləri bu məbləğə əlavə edilir və ya çıxılır. Maliyyə alətlərinin ilkin tanınması zamanı onun ədalətli dəyəri onun əməliyyat qiymətindən fərqlənirsə Təşkilat 1-ci günün mənfəət və zərər uçotunu aşağıda təsvir olunduğu şəkildə aparır.

***1-ci gün mənfəət və zərər uçotu***

Maliyyə alətinin əməliyyat qiyməti, onun yalnız bazar əməliyyatlarında müşahidə oluna bilən daxilolmalarına əsaslanan qiymətləndirmə metodu əsasında təyin olunmuş ədalətli dəyərindən və ilkin tanınma zamanı yaranan ədalətli dəyərindən fərqli olduğu zaman, Təşkilat əməliyyat qiyməti və ədalətli dəyər arasındakı fərqi xalis satış gəlirlərinə tanıyır. Ədalətli dəyərin bəzi daxilolmaların müşahidə oluna bilmədiyi modelə əsaslandığı hallarda əməliyyat qiyməti və ədalətli dəyər arasındakı fərq təxirə salınır və yalnız daxilolmaların müşahidəsi mümkün oluqda və ya alətlərin tanınması dayandırıldıqda mənfəət və zərərdə tanınır.

***Maliyyə aktivləri və öhdəliklərinin ölçülmə kateqoriyaları***

Təşkilat öz maliyyə aktivlərini aşağıdakı meyarlarla aktivlərin idarə olunmasının biznes modeli və aktivlərin müqavilə şərtləri əsasında təsnifləşdirir:

- Amortizasiya olunmuş dəyərlə
- Digər məcmu gəlirlər hesabında ədalətli dəyərlə
- Mənfəət və ya zərər hesabına ədalətli dəyərlə

Təşkilat öz derivativlərini və satış portfelini mənfəət zərər hesabına ədalətli dəyərlə təsnifləşdirir və ölçür. Təşkilat qeyd olunan yanaşma uyğunsuzluqları əhəmiyyətli dərəcədə azaltdığı və ya aradan qaldırdığı halda maliyyə alətlərini mənfəət və ya zərər hesabına ədalətli dəyərlə tanıya bilər.

Kredit müqavilələri və qarantiyalar istisna olmaqla, derivativ, satış üçün saxlanılan və ya ədalətli dəyər təyinatı tətbiq olunan maliyyə öhdəlikləri mənfəət və ya zərər hesabına ədalətli dəyərlə və ya amortizasiya olunmuş dəyərdə ölçülür.

**Maliyyə aktivləri və öhdəlikləri**

**Amortizasiya olunmuş dəyərlə tanınan təşkilatlarla debitor borcları, Müştərilərə verilən kreditlər və avanslar, Maliyyə investisiyaları**

Təşkilat yalnız aşağıdakı hər iki şərt ödənərsə *Bank hesabları* və *Müştərilərə verilən kreditlər və avanslar* və digər maliyyə investisiyalarını amortizasiya olunmuş dəyərlə ölçür:

- Maliyyə aktivləri müqavilə əsasında pul vəsaitləri hərəkətinin toplanması məqsədi daşıyan biznes modelin tərkibindədir
- Maliyyə aktivlərinin müqavilə şərtləri ödənilməli olan əsas məbləğin qalıq dəyərinə hesablanmış faiz və əsas məbləğlərin geri ödənişindən yaranan pul vəsaitlərinin daxilolmalarına gətirib çıxarır.

Bu şərtlərin detalları aşağıda təsvir olunub.

**Biznes modelin qimətləndirilməsi**

Təşkilat onun biznes məqsədlərinə çatmaq üçün maliyyə aktivləri qruplarının idarə olunmasını ən uyğun şəkildə əks etdirilməsi səviyyəsində özünün biznes modelini təyin edir.
Təşkilatın biznes modeli maliyyə alətlərinə görə tək-tək deyil, cəmlənmiş portfellərin daha yüksək səviyyələrinə görə qiymətləndirilir və aşağıdakı müşahidə oluna bilən faktorlara əsaslanır:

- Biznes modelin performansı və bu biznes model daxilində saxlanılan maliyyə aktivləri necə qiymətləndirilir və təşkilatın əsas idarə heyətinə təqdim olunur
- Biznes modelin performansına (və bu biznes model daxilində saxlanılan maliyyə aktivlərinə) təsir edən risklər və xüsusilə də, bu riskərin idarə olunması üsulu
- Təşkilatın menecerlərinə müavinətlər necə verilir (məsələn, kompensasiya aktivlərin ədalətli dəyərinə və yaxud müqavilə üzrə əldə edilmiş pul vəsaitlərinin hərəkətinə əsaslanır)
- Satışların gözlənilən tezliyi, dəyər və vaxtı da Təşkilatın qiymətləndirilməsi baxımından mühim aspektlərdən hesab edilir.

Biznes model qiymətləndirməsi "ən pis hal" və "stress vəziyyəti" halları nəzərə alınmadan gözlənilən qrafikaya əsaslanır.

İlkin tanınmadan sonra pul vəsaitlərinin hərəkəti Təşkilatın gözləntilərindən fərqli bir şəkildə həyata keçirilirsə bu halda Təşkilat biznes modelində qalan maliyyə aktivlərinin təsnifatını dəyişmir, lakin yeni başlayan və ya yeni satın alınan maliyyə aktivlərini qiymətləndirərkən bu məlumatları da daxil edir.

**Yalnız əsas məbləğin və faizlərinin ödənişi (YƏMFÖ)**

Təşkilat təsnifat prossesinin ikinci mərhələsində maliyyə müqaviləsi şərtlərinin test meyarlarına uyğun olub olmadığını müəyyən edir.

Test mərhələsinin əsas vacib prinsipi maliyyə aktivinin ədalətli dəyərinin ilkin mərhələdə tanınması və maliyyə aktivinin qüvvədə olduğu müddət ərzində dəyişməsi (məsələn, hər hansı bir təkrar ödəmə və ya premium/endirim amortizasiyası) kimi müəyyənləşdirilmişdir.

Kreditin verilməsi zamanı ən mühim maraq amillərindən biri pulun zaman dəyərinin və kredit riskinin nəzərə alınmasıdır. YƏMFÖ qiymətləndirməsi aparmaq üçün Təşkilat mühakimə, maliyyə aktivlərinin hansı məzənnədə istifadə edilməsi və faiz dərəcəsinin müəyyənləşdirilməsi kimi əlaqəli faktorların nəzərə alınmasını tətbiq edir.

Bundan fərqli olaraq pul vəsaitlərinin hərəkəti risklərində və ya dəyişkənliyə məruz qalmasını izah edən müqavilə şərtlərinə əsasən pul vəsaitlərinin axını yalnız ödənilmiş əsas və faiz məbləğlərindən yaranmır.
Bu kimi hallarda maliyyə aktivlərinin mənfəət və ya zərər hesabatında ədalətli dəyərlə (MZHƏD) ölçülməsi tələb olunur.

**Derivativlər mənfəət zərər hesabına görə ədalətli dəyərdə qeydə alınır.**

Derivativlər aşağıda qeyd edilmiş üç xüsusiyyəti özündə birləşdirən Maliyyə alətidir.

- Dəyəri müəyyən bir faiz dərəcəsinə, maliyyə aləti qiymətinə, əmtəə qiymətinə, xarici valyuta məzənnəsinə, qiymət indeksi və dərəcələrinə, kredit reytinqi və kredit indeksinə və yaxud qeyri maliyyə dəyişkənliyi halında təmin edilən digər parametrlərə uyğun dəyişir, bu hal müqavilənin digər tərəfi üçün spesifik deyil.
- Bazar şərtlərindəki dəyişikliklərə eyni cavabın alınması gözlənilən daha kiçik oxşar müqavilələr üçün ilkin xalis investisiya tələb edilmir.
- Bu kimi hallar gələcək tarixdə həll olunur.

Təşkilat qarşı tərəflərlə derivativ əməliyyatlara daxil olur. Bunlara faiz dərəcəsi svopları, kredit şərtlərinin dəyişdirilməsi, qarşılıqlı valyuta svopları, ilkin valyuta müqavilələri, xarici valyutalar və səhmlər daxildir. Derivativ ədalətli dəyərdə qeyd edilir və ədalətli dəyər göstəricisi müsbət olduğu halda aktivlərdə, mənfi olduğu halda isə öhdəliklərdə tanınır. Bu cür derivativlərin xüsusi dəyəri və ədalətli dəyəri ayrı ayrılqda açıqlanır.

Derivativlərin ədalətli dəyərindəki dəyişikliklər hedcinq mühasibat uçotu tətbiq edilmədiyi hallarda xalis ticarət gəlirinə daxil edilir.

***Daxili derivativlər***

Daxili derivativlər özündə kənar derivativləri də birləşdirməklə kombinə maliyyə alətinin tək derivativlərə bənzər bir şəkildə fərqləndiyini təsvir edən hibrid alətin tərkib hissəsidir. Daxili derivativlər pul vəsaitlərinin müəyyən bir faiz dərəcəsinə uyğun olaraq dəyişdirilməli olan müqavilə ilə başqa cür tələb olunacaq pul vəsaitlərinin hərəkətlərinin bir hissəsi və ya hamısı, maliyyə aləti qiyməti əmtəə qiyməti, valyuta məzənnəsi, qiymətlər və ya dərəcələr indeksləri, kredit reytinqi və ya kredit endeksi və ya digər dəyişənlərə səbəb olur. Bir maliyyə alətinə əlavə edilmiş, lakin həmin alətdən asılı olaraq müqavilə ilə ötürülən və ya həmin alətdən fərqli bir qarşı tərəfə malik olan bir derivativ əlavə törəmə deyil, ayrıca bir maliyyə aləti hesab olunur.

Maliyyə aktivlərində yerləşdirilən derivativlər, borc öhdəlikləri və qeyri-maliyyə tərəfdaş əlaqələri ayrı-ayrı törəmə alətləri kimi qiymətləndirilmiş və ədalətli dəyərində qeyd edilmişdir. Əgər bir derivativ anlayışına (yuxarıda müəyyən edilmiş şəkildə) cavab verərlərsə, onların iqtisadi xüsusiyyətləri və riskləri əsas müqavilənin şərtləri ilə sıx əlaqədar deyildir və əsas müqavilənin özü ticarət üçün yaxud mənfəət və ya zərər hesabatında ədalətli dəyərlə təyin edilməsi üçün nəzərdə tutulmamışdır. Əsas müqavilədən ayrılmış daxili derivativlər ticarət portfelində ədalətli dəyərdə əks etdirilən dəyişikliklərlə təqdim edilir.

Təşkilat bu şəkildə maliyyə öhdəlikləri və qeyri-maliyyə müqavilələrinə daxil edilmiş derivativlərin uçotunu aparır. Maliyyə aktivləri biznes modelinə və YƏMFÖ qiymətləndirmələrinə əsasən təsnifləşdirilir.

**Digər məcmu gəlirlər hesabatına ədalətli dəyərlə tanınan kapital alətləri**

Təşkilatlar, nadir hallarda ilkin tanınma zamanı maliyyə alətlərini 32 saylı MUBS Maliyyə alətləri: "Təqdimat standartına uyğun gəlirsə və ticari məqsədli saxlanılmırsa digər məcmu gəlirlər hesabına ədalətli dəyərlə tanıyır. Bəzi kapital investisiyalarını, digər məcmu gəlirlər hesabına ədalətli dəyərlə kapital alətləri kimi siniflәndirməyi seçirlər. Bu kapital alətlərində gəlir ve zərərlər heç zaman mənfəət və ya zərər hesabatına geri tanına bilməz. Dividendlər, ödəmə haqqı təşkil edildiyində, təşkilatların xərclərinin bir qisminin kompensasiya edilərək gəlir əldə etmələri kimi hallar- məsələn ,digər məcmu gəlirlərdə qeyd olunan mənfəət istisna olmaqla, eynilə digər fəaliyyət gəlirləri kimi, mənfəət və ya zərər hesabında öz əksini tapır. Digər məcmu gəlirlərdə ədalətli dəyərlə tanınan kapital alətləri, dəyərsizləşmə qiymətləndirilməsindən kənar tutulmaqdadır.

**Alınmış Borclar və digər borc götürülmüş məbləğlər**

İlkin tanınmadam sonra, alınmış borclar və borc götürülmüş məbləğlər, amortizasiya edilmiş xərclər kimi ölçülür. Amortizasiya edilmiş xərclər, effektiv faiz dərəcəsinin daxili hissəsi olan maliyyə xərcləri, hər hansı bir endirim, və ya premiya fondları nəzərə alınaraq hesablanmaqdadır. Həm kapital, həm də öhdəlik komponentlərini özündə cəmləşdirən mürəkkəb maliyyə alətləri dərc olunma tarixində ayrılır.

Təşkilatlar, qeyri-törəmə alətlərinə mühasibat əməliyyatlarını yerinə yetirərkən, ilk öncə bu alətlərin mürəkkəb olub olmadığını müəyyən edir və daha sonra bu alətin hər bir komponentini ayrı ayrılıqda, maliyyə aktivi, öhdəliyi və ya kapitalı kimi, MUBS 32 əsasında, təsnifləşdirir. Geri dönüşdürülə bilən alətlərin öhdəlik və kapital komponentlərinin təsnifi, bəzi səhmdarlar üçün bir variantın istifadəsi baxımından iqtisadi cəhətdən sərfəli görünsədə, geri dönüşüm əməliyyatının tətbiqi zamanı dəyişiklik səbəbiylə yenidən nəzərdən keçirilə bilməz. Mürəkkəb maliyyə alətinin ilkin sərmayəsinin kapital və öhdəlik komponentlərinə ötürülməsi zamanı, kapital, alətin bütün həqiqi dəyərinin qalıq məbləğlərinin ixracından sonrakı halı olaraq dəyərləndirilir və bu məbləğ öhdəliklər üçün ayrı bir şəkildə qeyd olunur. Hər hansı bir mürəkkəb maliyyə alətinə bağlı olan törəmə tərkibli alətlərin dəyəri, kapitaldan fərqli olaraq, öhdəlik komponentlərinə daxil olmaqdadır.

Təşkilatlar kapital və öhdəlik bölgüsünü müəyyən etdikdən sonra, sonrakı mərhələ olaraq, öhdəliklərin ayrı ayrılıqda nəzərə alınması vacib olan törəmələrə malik olub olmadığını müəyyənləşdirməlidir.

**Mənfəət və ya zərər hesabına ədalətli dəyərlə tanınan maliyyə aktivləri və öhdəlikləri**

Bu kateqoriyaya aid olan maliyyə aktivləri və öhdəlikləri, kommersiya məqsədli olmayan və ilkin mühasibat prosesi zamanı rəhbərlik tərəfindən müəyyən olunan və ya icbari şəkildə MUBS 9 nəzdində həqiqi dəyəri ölçülə bilən kateqoriyalardır.

Rəhbərlik ilkin uçot sonrası yalnız aşağıda göstərilən kriteriyalardan biri yerinə yetirildiyində mənfəət və ya zərər hesabına ədalətli dəyərlə tanınan bir alət müəyyən edir. Bu cür təyinatlar hər bir alət üzrə ayrıca həyata keçirilir:

- Müvafiq təyinat mühasibat uçotunda fərqli tanınma halında yarana biləcək uyğunsuzluqları aradan qaldırır və ya əhəmiyyətli dərəcədə azaldırsa və ya
- Borclar risklərin idarə edilməsi siyasəti və ya investisiya strategiyasına əsasən idarə olunan və onların fəaliyyəti ədalətli dəyər əsasında qiymətləndirilmiş maliyyə öhdəlikləri qrupunun bir hissəsidirsə və ya
- Bir və ya daha çox derivativi olan öhdəliklər, əksər hallarda istənilən pul vəsaitlərinin hərəkəti əhəmiyyətli dərəcədə dəyişməyincə müqavilə ilə və ya bənzər bir alətlə əlaqədar derivativlərin ayrılmasının qadağan edildiyi hesab edilirsə

Mənfəət və ya zərər hesabına ədalətli dəyərlə tanınan maliyyə aktivləri və maliyyə öhdəlikləri ədalətli dəyərdə maliyyə vəziyyəti haqqında hesabatda əks etdirilir.

Ədalətli dəyərdəki dəyişikliklər Təşkilatın öz kredit riskindəki dəyişikliklər səbəbindən öhdəliklərin ədalətli dəyərində hərəkətlər istisna olmaqla, mənfəət və zərər hesabatında qeydə alınır. Ədalətli dəyərdəki dəyişikliklər digər məcmu gəlirlər vasitəsilə öz kredit ehtiyatında qeydə alınır və mənfəət və zərərə geri qaytarılmır. Mənfəət və ya zərər hesabatında əks etdirilən alətlər üzrə əldə edilmiş və ya hesablanmış faizlər, faiz gəliri və ya faiz xərci ilə, hər hansı bir endirim / mükafat və alət əməliyyatının xərclərini alətin ayrılmaz bir hissəsi kimi nəzərə almaqla və effektiv faiz dərəcəsindən istifadə etməklə hesablanır.

Səhmdar alətlərinin payı üzrə dividend gəlirləri, ödəniş hüququ təsis edildikdə, digər əməliyyat gəlirləri kimi mənfəət və ya zərərdə qeydə alınır.

**Maliyyə zəmanətləri, akkreditivlər və istifadə olunmayan kredit öhdəliyi**

Təşkilat maliyyə zəmanətləri, akkreditiv və borc öhdəliklərini dərc edir. Maliyyə zəmanətləri ilkin olaraq maliyyə hesabatlarında tanınır (Müddəalar daxilində) .Hər bir zəmanət üzrə Təşkilatın öhdəliyi ilkin tanınan məbləğin üstündə hesablanır və mənfəət və ya zərər hesabatında yığılmış amortizasiya ayırmaları çıxılır. Əldə edilmiş mükafat zəmanət müddəti boyunca düz xətt əsasında net gəliri və komisiya gəliri formasında mənfəət və ya zərər hesabatında tanınır.

***Maliyyə aktivlərinin və öhdəliklərinin tanınmasının dayandırılması***

**Şərtlərin və şəraitlərin əhəmiyyətli dərəcədə dəyişdirilməsinə görə tanınmanın dayandırılması**

Yeni tanınmış kreditlər GKZ ölçmə məqsədləri üçün yeni kredit dəyərsizləşmiş hesab edilənə qədər 1-ci Mərhələdə təsnifləşdirilir. Təşkilat müştəriyə kredit verilməsininin dayandırılıb-dayandırılmamasını qiymətləndirərkən, digərləri arasında aşağıdakı faktları nəzərdə saxlayır:

- Kreditin valyutasının dəyişməsi
- Kapital xüsusiyyətlərinin təqdimatı
- Qarşı tərəfdəki dəyişiklik
- Dəyişikliklərin bu cür tanınması müqabilində modifikasiya alətləri artıq YƏMFÖ meyarlarına cavab verməyəcəyinin məlum olması

Əgər dəyişiklik nəğd pul vəsaitlərinin axışında əhəmiyətli dərəcədə fərqliliyə səbəb olmursa, dəyişiklik tanınmanın dayandırılmasına gətirib çıxara bilməz. Orijinal ehtimal olunan faiz dərəcələrində diskontlaşdırılmış pul vəsaitlərinin hərəkətindəki dəyişikliyə əsasən, Təşkilat, hər hansı bir dəyərdən düşmə (dəyərsizləşmə) halları qeyd edilmədiyi təqdirdə, bununla bağlı olaraq mənfəət və zərər hesabına dəyişikliklərin təsirini uçota alır.

***Əsaslı dəyişikliklərdən başqa tanımanın dayandırılması halları***

**Maliyyə aktivləri**

Maliyyə aktivindən pul vəsaitlərinin hərəkətini almaq hüququ başa çatdıqda maliyyə aktivinin (və ya mümkün olduqda, maliyyə aktivinin bir hissəsi və ya oxşar maliyyə aktivlərinin bir hissəsi) tanınması dayandırılır.

Təşkilat maliyyə aktivini yalnız və yalnız aşağıdakı hallarda köçürə bilər :

- Təşkilat maliyyə aktivlərindən pul vəsaitlərinin axınını əldə etmək üçün müqavilə hüquqlarını köçürmüşdür,

Və ya,

- Pul vəsaitlərinin hərəkəti hüququnu saxlayır, lakin "ötürmə" razılaşması ilə üçüncü tərəfə maddi gecikmə olmadan alınan pul vəsaitlərinin hamısını tam ödəmək öhdəliyi götürür ki, bu ödəniş qaydaları Təşkilatın maliyyə aktivi üzrə pul vəsaitlərinin axınını ("əsas aktiv") almaq üzrə müqavilə hüquqlarını saxladığı əməliyyatlardır, lakin həmin pul vəsaitlərinin hərəkəti bir və ya bir neçə müəssisəyə ("son alıcılara"), aşağıdakı üç şərt yerinə yetirildikdə ödənilir:
- Təşkilat, alınmış məbləğin tam ödənilməsi və faiz dərəcələrinə uyğun faiz məbləğləri ilə qısamüddətli avanslar istisna olmaqla, orijinal aktivdən ekvivalent məbləğlərin yığımını həyata keçirmədiyi halda, alıcılara məbləğləri ödəmək öhdəliyi yoxdursa
- Təşkilat, potensial alıcılara təminat olaraq təqdim etdiyi aktivdən başqa, hər hansı bir digər orijinal aktivi sata və ya girov qoya bilməzsə
- Təşkilat potensial alıcılar adına toplanan pul vəsaitlərini əhəmiyyətli gecikmə olmadan təhvil vermək məcburiyyətindədirsə

Əlavə olaraq, Təşkilat pul və pul ekvivalentlərində investisiyalar istisna olmaqla, yığım tarixi və potensial alıcılara lazım olan pul köçürmə tarixləri arasında olan dövr ərzində qazanılmış faizlər də daxil olmaqla, bu cür pul axınlarını yenidən investisiya etmək hüququna malik deyildir. Transfer yalnız tanınmanın dayandırılması hallarına uyğunlaşdırılır, həmçinin :

- Təşkilat aktivin bütün risklərini və mükafatlarını əhəmiyyətli dərəcədə ötürmüşdür

Və ya,

- Təşkilat aktivin bütün risklərini və mükafatlarını əhəmiyyətli dərəcədə nə ötürmüş nə də saxlamamışdır, lakin aktiv üzrə nəzarətin ötürülməsini təmin etmişdir.

Təşkilat, bütün əsaslı riskləri və mükafatlarını əhəmiyyətli dərəcədə köçürmədikdə və ya əlində saxlamadıqda, yalnız aktivin nəzarətini özündə saxlayıbsa, aktiv yalnız Təşkilatın davamlı təsirini əhəmiyyətlilik dərəcəsi ilə tanınır və bu halda Təşkilat həmçinin əlaqəli öhdəliyi tanımalıdır. Köçürülmüş aktiv və əlaqəli öhdəlik Təşkilatın əlində saxladığı hüquq və öhdəlikləri əks etdirən əsaslarla ölçülür.

Köçürülmüş aktiv üzərində təminat şəkli alan davamlı müdaxilə və təsir gücü, aktivi orijinal balans dəyərinin altında və Təşkilatın ödəməsi tələb oluna biləcək makimum məbləğlə ölçülür. Davamlı təsir köçürülmüş aktiv üzrə yazılı və ya satın alınan bir variantın (və ya hər ikisinin) formasını alırsa, Təşkilatın aktivi yenidən satın alma prosesində ödəməsi lazım gələn dəyərdə ölçülür. Ədalətli dəyərlə ölçülmüş bir aktiv üzrə yazılı təklif seçimi olması halında, Təşkilatın davam edən təsirinin əhatəsi, köçürülmüş aktivin ədalətli dəyəri və seçmə əməliyyat qiymətinin aşağı olması şərtlərilə məhdudlaşır.

**Maliyyə öhdəlikləri**

Maliyyə öhdəliklərinin tanınması öhdəliklərin sıfırlanması, ləğv edilməsi ya da vaxtının bitməsi hallarında dayandırılır.

Mövcud maliyyə öhdəliyi eyni kredit verəndən əhəmiyyətli dərəcədə fərqli şərtlər ilə əvəz edildikdə və ya mövcud öhdəliyin şərtləri əhəmiyyətli dərəcədə dəyişdirildikdə, belə bir mübadilə və ya dəyişiklik öz öhdəliklərinin tanınmasının dayandırılması və yeni öhdəliklərin tanınması kimi qəbul edilir. Orijinal maliyyə öhdəliklərinin balans dəyəri və ödənilməli ödənişlər arasındakı fərq mənfəət və zərərdə tanınır.

***Maliyyə aktivlərinin dəyərdən düşməsi***

**Gözlənilən Kredit Zərərlərinin tanınması prinsiplərinə ümumi baxış**

Hər ikisi maliyyə alətlərinin əsas portfelinin xarakterindən asılı olaraq ya fərdi əsasda ya da kollektiv əsasda hesablanır. Təşkilat hər hesabat dövrünün sonunda, ilkin tanımadan sonra maliyyə alətlərinin kredit riskinin əhəmiyyətli dərəcədə artıb-artmadığını, maliyyə alətlərinin qalan faydalı ömrü ərzində dəyərsizləşmə riskindəki dəyişikliyi diqqətə alaraq qiymətləndirmə aparmaq siyasətini həyata keçirmişdir.

Yuxarıdakı prosesə əsaslanaraq Təşkilat kreditlərini aşağıda açıqlandığı şəkildə Mərhələ 1, Mərhələ 2, Mərhələ 3 və dəyərsizləşmiş (AYKD) kreditlər kimi qruplaşdırır.

Mərhələ 1: Kreditlərin ilkin tanınması, Təşkilat 12 aylıq GKZ-ə əsaslanan ehtiyyat məbləğini tanıyır. Mərhələ 1 kateqoriyasında qruplaşdırılan kreditlər həmçinin kredit riskinin artaraq Mərhələ 2-dən yenidən təsnifləşdirilmiş kreditləri də özündə cəmləşdirir.

Mərhələ 2: Borc verildikdən sonra kredit riskində əhəmiyyətli artım baş verdikdə, Təşkilat kreditin gözlənilən faydalı ömrü ərzində yarana biləcək zərərlər üçün ehtiyat yaradır. Mərhələ 2 kreditləri əlavə olaraq, kredit riskinin artdığı və kreditin Mərhələ 3-dən etibarən yenidən təsnifləşdirildiyi təsislərədə ehtiva edir.

Mərhələ 3: Əhəmiyyətli dərəcədə dəyərsizləşmə müşahidə olunan kreditlər. Təşkilat kreditin gözlənilən faydalı ömrü ərzində yarana biləcək zərərlər üçün ehtiyat yaradır.

AYKD: Alınan və ya yaradılan kredit aktivləri üçün ilkin tanımada dəyərsizləşmə müşahidə olunan maliyyə aktivləridir. AYKD aktivləri orjinal tanınmalar sırasında ədalətli dəyərdə qeydə alınır və faiz gəlirinin sonrakı tanınmaları effektiv faiz dərəcəsinə əsaslanır. GKZ yalnız ehtimal edilən dəyərsizləşmədə növbəti dəyişiklik olduğunda tanınır və ya genişləndirilir.

Təşkilatın geri ödənilməmiş kedit məbləğlərilə bağlı bərpa olunmasına dair gözləntisi qalmadığı hallarda bütünlüklə və ya hissəvi maliyyə aktivinin ümumi balans dəyəri azaldılır. Bu, maliyyə aktivinin tanımasının (qismən) dayandırılması hesab olunur.

**Gözlənilən kredit zərərlərinin hesablanması**

Təşkilatlar effektiv faiz dərəcəsinə qədər azalmış qısamüddətli nağd pul daxilolmalarını ölçmək üçün dörd ehtimal yönümlü ssenariyə dayanaraq gözlənilən kredit zərərlərini hesablayırlar. Qısamüddətli nağd pul azalmaları müqaviləyə uyğun olaraq Təşkilata ödənilməli pul axınları ilə Təşkilatın ümumilikdə əldə etməyi gözlədiyi məbləğ arasındakı fərqdir.

Gözlənilən kredit zərərlərinin hesablanmasında əsas elementlər aşağıdakılardır:

- *Defolt ehtimalı-* (Öhdəliyin yerinə yetirilməməsi ehtimalı) verilmiş zaman kəsiyində ödənilməmə ehtimalının təxmini hesablanmasıdır.

Defolt ehtimalı bəzən yalnız dəyərləndirilən zaman müddətində baş verə bilər, lakin, ehtiyatlar portfel daxilində davamlı olaraq saxlanılmış ola da bilər.

- *Defolt ehtimalında açıqlanma-* hesabat tarixindən sonra əsas məbləğin və faizin müqavilə ilə müəyyən edilmiş və ya hər hansı digər formada təyin edilən geri ödəmə şərtləri daxil olmaqla, təklif edilən güzəştlərdən mümkün azalmaların və gecikmiş ödəmələrə yığılmış faizlərin nəzərə alınaraq gələcək tarixdəki dofoltun açıqlama qeydlərində yaradacağı dəyişikliklərin əvvəlcədən təxmin edilməsidir.
- *Defolt ehtimalında mümkün zərərlər-* Verilmiş müddət ərzində defolt hadisəsinin baş verməsindən yaranan zərərlərin əvvəlcədən təxmin edilməsidir. Bu daha çox müqavilə üzrə məbləğlər ilə borc verənin qoyulmuş girovların realizasiyası da daxil olmaqla almağı gözlədiyi məbləğ arasındakı fərqə əsaslanır.

Gözlənilən kredit itkilərini əvvəlcədən dəyərləndirərkən dörd müxtəlif ssenariləri nəzərə alınır (əsas vəziyyət, qalxış, yumuşaq düşüş (enmə 1), və daha kəskin enmə (enmə2). Bunların hər biri müxtəlif defolt ehtimalı, defolt vəziyyətində açıqlama və defolt ehtimalında mümkün zərərlərlə əlaqəlidir. Vəziyyətdən asılı olaraq, ödənilməyən borcların ödənilmə ehtimalının və girovun dəyərinin və ya aktivin satılmasından əldə ediləcək məbləğin də nəzərə alınaraq geri qaytarılmasına dair müxtəlif ssenarilər də daxil edilə bilər.

Kredit kartları və digər dövriyyə vəsaitləri istisna olmaqla kredit zərərlərində maksimum dövr Təşkilat hüquqi cəhətdən daha erkən müddətə tanımalı olduğu hallar istisna olmaqla maliyyə alətinin müqavilə müddəti ilə müəyyən edilir.

Dəyərsizləşmə zərərləri və azadolmalar maliyyə aktivinin balans dəyərinə müəyyən edilmiş alınmamış borc öhdəliyinə görə yaradılan gözlənilən kredit zərərləri üzrə ehtiyatlardan formalaşan modifikasiya zərərləri və ya gəlirlərindən ayrılıqda balansda və açıqlama qeydlərində öz əksini tapır. Gözlənilən kredit zərəri metodunun mexanizmlərini aşağıdakı kimi izah etmək olar:

- 1-ci mərhələ: Təşkilat hesabat tarixindən sonrakı 12 aylıq müddət ərzində maliyyə alətinin mümkün ödənilməmə ehtimalının nəticəsi kimi istifadə müddəti üzrə gözlənilən kredit zərərinin 12 aylıq nisbətini hesablayır. Təşkilat hesabat tarixindən sonrakı növbəti 12 aylıq müddət üçün gözlənilən ödənilməmə hadisəsinə ehtiyat məbləğini hesablayır.

Bu gözlənilən 12 aylıq ödənilməmə ehtimalları effektiv faiz dərəcəsinə yaxınlaşana qədər azaldıb, ödənilməmə hadisəsində gözlənilən itkilərin miqdarında vurularaq ödənilməmə hadisəsində açqlama qeydlərinin proqnozlaşdırılmasına istifadə olunur. Hər dörd ssenari üçün bu hesablamalar yuxarıda izah edildiyi kimidir.

- 2-ci mərhələ: Borcun kredit riski originaldan əhəmiyyətli dərəcədə artdıqda Təşkilat istifadə müddəti üzrə gözlənilən kredit zərəri ehtiyatı yaradır. Mexanizmlər ssenarilər də daxil olmaqla yuxarıda izah edilən digər ssenarilərlə oxşarlıq təşkil etsə də ödənilməmənin ehtimalı və ödənilməmə hadisəsində zərərlərin miqdarı maliyyə alətinin istifadə müddətinə əsasən proqnozlaşdırılır. Ehtimal olunan nağd pul ehtiyatları orijinal effektiv faiz dərəcəsinə yaxın məbləğə qədər azaldılır.
- 3-cü mərhələ: Təşkilat kredit dəyərsizləşməsi nəzərə alınan borclara gözlənilən istifadə müddəti üzrə kredit zərərləri hesablayır. Bu metod 2-ci mərhələdə verilən ödənilməmə ehtimalı 100% müəyyən edilmiş aktivlərlə oxşardır.
- Alınmış və ya original kredit dəyərsizləşməsi müəyyən edilən aktivlər ilkin tanınmada kredit dəyərsizləşməsi hesablanan aktivlərdir. təşkilatlar ilkin tanınmadan istifadə müddəti üzrə gözlənilən kredit zərərlərinə yalnızca yığılmış dəyişiklikləri dörd ehtimal yönümlü ssenarilərə əsaslanaraq tanıyır.
- Borc öhdəlikləri və akkreditivlər

Alınmamış borc öhdəliyinə istifadə müddəti üzrə gözlədilən kredit zərərlərini proqnozlaşdırarkən Təşkilat borc öhdəliyinin gözlənilən hissəsinin istifadə müddəti bitdikdən sonra alacağını nəzərdə tutur.

Gözlənilən kredit zərəri, dörd ssenarinin ehtimal ağırlığına əsaslanan nağd pulun çəkildiyi təqdirdə, gözlənilən çatışmazlıqların bugünkü dəyərinə əsaslanır. Gözlənilən nağd pul çatışmazlığı, kredit üzrə gözlənilən effektiv faiz dərəcəsinə yaxınlaşanda təxirə salınır.

Həm kredit, həm də alınmamış bir öhdəlik daxil olan kredit kartları və dövriyyə vəsaitləri üçün gözlənilən kredit zərərləri kreditlə birlikdə hesablanır və təqdim olunur. Kredit öhdəlikləri və akkreditivlər üçün gözlənilən kredit itkiləri *ehtiyat* məbləği içərisində tanınır.

- Qarantiyalar

Hər bir zəmanət üzrə Təşkilatın öhdəliyi, gəlir hesabatında tanınmış məcmu amortizasiya məbləğinin azaldılması və gözlənilən kredit itkiləri ehtimalının daha yüksək olması ilə ölçülür. Bu məqsədlə, Təşkilat, sahibinin kredit zərərinə görə geri ödəyəcəyi məbləğin riskə uyğun effektiv faiz dərəcəsi tətbiq edilmiş azalmaların hazırki dəyərini əvvəlcədən təqribi hesablayır. Hesablama ehtimal ağırlıqlı dörd ssenari ilə aparılır. Maliyyə təminatı müqavilələri ilə bağlı gözlənilən kredit itkiləri *ehtiyatlar* daxilində tanınır.

**Digər məcmu gəlirlər içərisində balans dəyəri ilə ölçülən borc alətləri**

Digər məcmu gəlirlər içərisində balans dəyərində ölçülmüş borc alətlərinin gözlənilən kredit zərərləri bu maliyyə aktivlərinin qalıq dəyərini maliyyə vəziyyəti haqqında hesabatda azaltmır.

Bunun əvəzində, aktivlərin amortizasiya olunmuş dəyərlə ölçülməsi halında yaranacaq ehtiyata bərabər olan məbləğ, digər məcmu gəlirlərdə mənfəət və ya zərərə müvafiq yığılmış dəyərsizləşmə məbləği olaraq tanınır. Digər məcmu gəlirlərdə yığılmış zərərlər, aktivlərin silinməsi zamanı mənfəət və zərər hesabına qaytarılır.

**Alınmış və ya ilkin tanınmadan kredit dəyərsizləşməsi müəyyən olunmuş maliyyə aktivləri**

Alınmış və ya ilkin tanınmdad kredit dəyərsizləşməsi müəyyən olunmuş maliyyə aktivləri üçün Təşkilat ilkin tanınmadakı zərər ehtiyatlarına yalnız yığılmış dəyişiklikləri tanıyır.

**Gələcəklə bağlı proqnoz xarakterli məlumatlar**

Gözlənilən kredit riski modellərində, təşkilatlar aşağıdakı kimi geniş iqtisadi informasiyalara əsaslanmaqdadır:

- ÜDM artımı
- İşsizlik dərəcəsi
- Mərkəzi bankın faiz dərəcəsi
- Təsərrüfatı qiymətləri indeksi

Gözlənilən kredit zərərlərinin hesablanması üçün istifadə olunan məlumatlar və modellər, maliyyə hesabatları tarixində bazarın bütün xüsusiyyətlərini əks etdirə bilməz. Belə fərqlər əhəmiyyətli dərəcədə vacib olduqda bunu əks etdirmək üçün, keyfiyyətə uyğun bəzən müvəqqəti olaraq düzəlişlər edilir.

Yuxarıda göstərilən məlumatlar yalnız məsələyə aydınlıq gətirmək məqsədilə seçilmiş ümumi iqtisadi göstəricilərdir. Praktikada əmtəə qiymətləri inflyasiya dərəcələri, valyuta məzənnələri və dövlət büdcəsinin kəsirləri kimi digər göstəricilər də istifadə oluna bilər.

**Girov qiymətləndirməsi**

Təşkilat maliyyə aktivləri üzərində kredit risklərini azaldılması üçün mümkün olduğu qədər girovdan istifadə etməyə çalışır. Təşkilat zəmanətlər, daşınmaz əmlak, debitor borcları, ehtiyatlar, digər qeyri-maliyyə aktivləri və xalis müqavilələr formasında kredit alətləri kimi müxtəlif formalarda mövcud ola bilər. Girov təmin edilmədiyi halda, bu Təşkilatın maliyyə vəziyyəti haqqında hesabatında qeyd edilmir.

Lakin, girovun balans dəyəri gözlənilən kredit zərərlərinin hesablanmasına təsir göstərir. Adətən, ən az, kreditin verildiyi anda və üç ayda bir dəfə yenidən qiymətləndirilir. Bununla yanaşı, bəzi girovlar, məsələn, marja tələblərinə aid pul və ya qiymətli kağızlar gündəlik qiymətləndirilir.

Mümkün olduğu təqdirdə, Təşkilat təminat kimi saxlanılan maliyyə aktivlərini qiymətləndirmək üçün aktiv bazar məlumatlarından istifadə edir. Sabit bazar qiymətinə sahib olmayan digər maliyyə aktivləri modellərdən istifadə etməklə qiymətləndirilir. Daşınmaz əmlak kimi qeyri-maliyyə girovları ipoteka brokerləri kimi üçüncü tərəflərin verdiyi məlumatlara görə və ya mənzil qiymət indeksləri əsasında qiymətləndirilir.

**Girovun ötürülməsi**

Təşkilatın siyasəti müsadirə edilmiş girovların Təşkilatın daxili əməliyyatları üçün ən yaxşı şəkildə istifadə edilə biləcəyini və ya satılmalı olduğunu müəyyən etməkdir. Daxili əməliyyatlar üçün yararlı olacağı təsbit edilmiş girovlar üçüncü şəxslərə ötürüləcəyi dəyərdən aşağı və ya orijinal təmin edilmiş aktivin balans dəyərində hesablanır. Satışın daha əlverişli olduğu müəyyənləşdirilmiş girovlar, satış üçün saxlanılan aktivlərdə, balans dəyərində (əgər aktivlər olduqda) və ya balans dəyərindən qaytarılma tarixində satış üçün çəkiləcək xərclər çıxılmaqla Təşkilatın daxili siyasətinə uyğun olaraq tanınır.

Təşkilat normal fəaliyyəti dövründə pərakəndə portfelində əmlak və ya digər aktivləri fiziki olaraq üçüncü şəxslərə ötürmür, adətən auksionda borc öhdəliyini ödəmək üçün xarici agentləri cəlb edir.

Hər hansı əlavə dəyər müştərilərə / borcalanlara qaytarılır. Bu praktikanın nəticəsi olaraq hüquqi ötürülmə prosesinə məruz qalmış yaşayış obyektləri balansda qeyd edilmir.

**Silinmələr**

Maliyyə aktivləri yalnız bərpa edilməsi mümkün olmadığı halda təsdiq edildiyi zaman qismən və ya tam olaraq silinir. Silinəcək məbləğ yığılmış zərər ehtiyatından çox olduqda, fərq əvvəlcə ümumi balans dəyərinə tətbiq edilən ehtiyata əlavə olunur. Hər hansı bir sonrakı bərpa kredit zərərləri üzrə xərclərə hesablanır.

MHBS 7R.35L təşkilatlardan dövr ərzində silinmiş və hələ də icra fəaliyyətinə məruz qalan maliyyə aktivləri üzrə qüvvədə olan məbləği açıqlamağı tələb edir. Bu tələb, Təşkilatın aktivi bərpa etmək üçün heç bir əsaslı gözləntiləri olmadığı təqdirdə və əlavə prosedurları icra etməkdən imtina etdikdə silməsinə imkan verən MHBS 9.5.4.4 ilə ziddiyyət təşkil edir.

***Ədalətli dəyər*** - qiymətləndirmə tarixində bazar iştirakçıları arasında aparılan əməliyyatlarda aktivin satılması zamanı alınan və ya öhdəliyin köçürülməsi zamanı ödənilən qiymətdir. Aktivin və ya öhdəliyin ədalətli dəyərini müəyyən edərkən Təşkilat mümkün dərəcədə bazarda müşahidə edilə bilən informasiyalardan istifadə edir. Əgər aktivin və ya öhdəliyin ədalətli dəyəri müəyyən oluna bilmirsə, Təşkilat müşahidə edilə bilən məlumatların istifadəsini maksimumlaşdıran və müşahidə edilə biməyən məlumatların istifadəsini minimumlaşdıran (oxşar əməliyyatlar üçün qiymətləri, diskontlaşdırılmış pul vəsaitləri hərəkətinin təhlilini və ya emitentin xüsusi hallarda opsiyon qiymət qoyma modelini əks etdirən müqayisəli bazar yanaşmasının istifadəsi) qiymətləndirmə mexanizmlərindən istifadə edir. İstifadə olunan məlumatlar bazar iştirakçılarının nəzərə aldığı aktiv/öhdəliyin xarakteristikalarına uyğundur.

Ədalətli dəyər qiymətləndirmə üçün məlumatların müşahidə edilə bilmə dərəcəsinə və bütünlüklə ədalətli dəyərin müəyyən olunmasında məlumatların əhəmiyyətinə əsaslanaraq müxtəlif iyerarxik kateqoriyalara bölünür:

- 1-ci səviyyə - ədalətli dəyər eyni aktivlər/öhdəliklərin aktiv bazardakı mövcud qiymətindən (dəyişdirilməmiş) əldə edilir.
- 2-ci səviyyə - ədalətli dəyər 1-ci səviyyədə göstərilən mövcud qiymətlərdən fərqli olaraq aktiv və ya öhdəlik üçün birbaşa (məs., qiymətlər) və ya dolayı yolla (qiymətlərdən əldə olunan) müşahidə edilə bilən məlumatlardan əldə olunur.
- 3-cü səviyyə - ədalətli dəyər müşahidə edilən bazar məlumatlarına əsaslanmayan (müşahidə edilə bilinməyən məlumatlar ) aktiv və öhdəliklər üçün məlumatları özündə əks etdirən qiymətləndirmə mexanizmlərindən əldə olunur.

Ədalətli dəyər iyerarxiyasının səviyyələri arasındakı köçürmələr Təşkilat tərəfindən dəyişikliyin baş verdiyi hesabat dövrünün sonunda tanınır.

**Fəaliyyətin fasiləsizliyi**

Rəhbərlik hazırkı maliyyə hesabatlarını fəaliyyətin fasiləsizliyi prinsipi əsasında hazırlamışdır. Bu mülahizənin irəli sürülməsində rəhbərlik mövcud planları, əməliyyatların rentabelliyini və maliyyə resurslarına giriş imkanını nəzərə almışdır. Hazırkı maliyyə hesabatlarının hazırlanması zamanı Rəhbərlik fəaliyyətin fasiləsizliyi ilə bağlı aşağıdakı problemləri nəzərə almışdır:

- Təşkilatın 31 dekabr 2023-cü il tarixinə cəmi mənfi kapitalı 17,935 min AZN-ə bərabər olmuşdur;
- Təşkilatın 31 dekabr 2023-cü il tarixinə bir ilədək məcmu likvidlik çatışmazlığı mənfi 14,254 min AZN-ə bərabər olmuşdur.
- Təşkilat 31 dekabr 2023-cü il tarixində tamamlanan il üzrə 1,042 min AZN xalis zərərə uğramışdır.

Bununla yanaşı, kredit portfelinin keyfiyyətinin davamlı pisləşməsi əlamətləri mövcuddur və Təşkilat xarici valyutanın mübadilə məzənnələrində dəyişikliklər riskinə məruz qalır və MHBS-ə uyğun maliyyə hesabatlarında tanınmış zərərləri əks etdirmək üçün Təşkilatın normativ kapitalına sonrakı dövrlərdə düzəliş edilə bilər.

Mənfi maliyyə nəticələrinə səbəb olan əsas amillər əvvəlki illərdə kredit vermə əməliyyatlarının müvəqqəti dayandırılması nəticəsində kredit portfelinin azalması ilə əlaqədar olaraq, kreditin dəyərsizləşməsi üzrə ehtiyatın artması, faiz gəlirlərinin azalması və borcların dəyərinin artması olmuşdur. Kredit vermənin anderraytinq meyarlarının sərtləşdirilməsi və borcalanların ödəmə qabiliyyətinin azalması kredit portfelinin azalmasına səbəb olmuşdur. İkinci səbəblə əlaqədar olaraq, müştərilərə verilmiş kreditlərin dəyərsizləşməsi üzrə ehtiyat səviyyəsi son 1 ildə 57%-dan 70%-ə çatmışdır.

Təşkilatın rəhbərliyi və səhmdarları gələcək əməliyyat mənfəətliliyini təmin etmək və maliyyə stabilliyini qoruyub saxlamaq məqsədilə əməliyyat gəlirlərinə xüsusi diqqət ayırmaq, aşağı riskli müştərilərə kreditlər vermək və xərclərin səmərəliliyini daha da artırmaq niyyətindədirlər.

Qeyd olunan məsələlərlə bağlı, Təşkilat aşağıdakı addımları atmışdır:

- Likvidlik problemləri dövründə Təşkilata davamlı dəstək göstərəcəklərinə dair səhmdarlar danışıqlarla danışıqlar davam edir;
- Təşkilat likvidliyin çatışmamazlığı ilə əlaqədər Azərbaycan Əmanətlərin Sığortalanması Fondu ilə bağlanmış müqavilənin uzadılması barəsində razılaşma əldə olunub (27 dekabr 2021-ci il).

Rəhbərliyin qiymətləndirməsi və görülən tədbirlərin nəticəsi olaraq, rəhbərlik Təşkilatın növbəti on iki ay ərzində öz likvidlik ehtiyaclarını ödəyə biləcəyini hesab edir. Yuxarıda qeyd olunanları və növbəti on iki ay üzrə Təşkilatın xidmətləri ilə bağlı səhmdarlardan gözlənilən davamlı dəstəyini nəzərə alaraq, rəhbərlik maliyyə hesabatlarının fəaliyyətin fasiləsizliyi prinsipi əsasında hazırlanmasının müvafiq olmasını hesab edir.

Bununla belə, qeyd edilmiş digər məsələlərlə yanaşı, yuxarıda qeyd edilən hallar və şəraitlər əhəmiyyətli qeyri-müəyyənliyin mövcudluğunu nümayiş etdirir.

***Pul vəsaitləri və onların ekvivalentləri.*** Pul vəsaitlərinə və onların ekvivalentlərinə ədalətli dəyərinin dəyişmə riski çox aşağı olan və Təşkilat tərəfindən qısamüddətli öhdəliklərin idarə olunmasında istifadə edilən əskinaslar və sikkə pullar, ARMB-də və sair Təşkilatlarda saxlanılan bloklaşdırılmamış hesab qalıqları (Nostro hesablar) və ilkin ödəniş müddəti üç aydan az olan yüksək likvidli maliyyə aktivləri daxildir. ARMB-də saxlanılan məcburi ehtiyatlar onların çıxarılması ilə bağlı məhdudiyyətləri nəzərə alaraq pul vəsaitlərinin ekvivalentlərinə aid edilmir. Maliyyə vəziyyəti haqqında hesabatda pul vəsaitləri və onların ekvivalentləri amortizasiya edilmiş dəyər əsasında əks olunur.

***Digər Təşkilatlar və maliyyə institutlarından alınacaq vəsaitlər.*** Digər Təşkilatlardan alınacaq vəsaitlər təsbit edilmiş və ya müəyyən edilə bilən tarixlərdə qaytarılmaq şərtilə Təşkilat tərəfindən müxbir Təşkilatlara avans şəklində nağd pul verildiyi zaman uçota alınır. Bu zaman, Təşkilatın derivativ maliyyə alətləri ilə əlaqəsi olmayan və sərbəst surətdə alınıb satıla bilməyən debitor borcları üzrə alqı-satqı əməliyyatı aparmaq niyyəti olmur. Verilmə tarixində istifadəsi üç aydan çox müddətə məhdudlaşdırılmış vəsaitlər pul vəsaitləri və onların ekvivalentlərinə aid edilmir. Digər Təşkilatlardan alınacaq vəsaitlər amortizasiya olunmuş maya dəyərində qiymətləndirilir.

***Müştərilərə verilmiş kreditlər.*** Müştərilərə verilmiş kreditlər təsbit edilmiş və ya müəyyən edilə bilən tarixlərdə qaytarılmaq şərtilə sərbəst surətdə alınıb satıla bilməyən qeyri-derivativ maliyyə alətləri ilə əlaqəsi olmayan debitor borclarının əldə edilməsi və ya yaradılması məqsədilə, Təşkilat tərəfindən müştərilərə avans şəklində nağd pul verildiyi zaman uçota alınır. Bu zaman Təşkilatın həmin debitor borcları üzrə alqı-satqı əməliyyatı aparmaq niyyəti olmur. Müştərilərə verilmiş kreditlər və avanslar amortizasiya olunmuş maya dəyərində qiymətləndirilir.

***Bina və avadanlıqlar.*** Bina və avadanlıqların bütün digər növləri lazım olduqda yığılmış amortizasiyanı və dəyərsizləşmə üzrə zərəri çıxmaqla (əgər varsa), ilkin dəyərdə qeydə alınır.

Kiçik həcmli təmir və istismar xərcləri çəkildiyi zaman xərcə silinir. Bina və avadanlıqların əsas komponentlərinin əvəz edilməsi xərcləri kapitallaşdırılır və əvəz edilmiş hissələr balansdan silinir. Bina və avadanlıqlar dəyərsizləşdikdə, onlar bina və avadanlıqların istifadəsi nəticəsində əldə edilən dəyər ilə satış xərcləri çıxılmaqla ədalətli dəyərdən daha yüksək olan dəyərə silinir. Aktivin balans dəyərindəki azalma mənfəət və zərərə aid edilir. Aktivin istifadəsi nəticəsində əldə edilən dəyərin və ya satış xərcləri çıxılmaqla, onun ədalətli dəyərinin müəyyən edilməsi üçün istifadə edilən təxminlərdə dəyişiklik baş verdiyi təqdirdə əvvəlki dövrlərdə hər-hansı aktiv üçün qeydə alınmış dəyərsizləşmə üzrə zərərlər bərpa edilir.

Bina və avadanlıqların satışından yaranan gəlir və zərər, gəlir məbləği və balans dəyəri arasındakı fərq kimi müəyyən edilir və mənfəət və zərərdə əks etdirilir.

***Qeyri-maddi aktivlər.*** Alınmış qeyri-maddi aktivlər ilkin dəyərdən amortizasiya və dəyərsizləşmə çıxıldıqdan sonra göstərilir.
Alınmış kompüter lisenziyaları və proqram təminatı onların istifadəyə yararlı hala gətirmək üçün çəkilmiş hər bir xərc əsasında kapitallaşdırılır. Qeyri-maddi aktivlərin amortizasiyası düz xətt metodu əsasında mənfəət və zərərdə tanınır. Qeyri-maddi aktivlərin təxmin edilən istifadə müddəti 10 ildir.

***Amortizasiya/köhnəlmə.*** Amortizasiya və köhnəlmə ayrı-ayrı aktivlərin hesablanmış faydalı istifadə müddətləri üzrə düz xətt prinsipi əsasında mənfəət və ya zərərə aid edilir. Amortizasiya və köhnəlmə aktiv əldə edildiyi tarixdən yaxud, daxili qaydada inşa edilən aktivlər halında, aktiv tam istifadə üçün hazır olduğu tarixdən etibarən başlanır. Torpaq üzrə amortizasiya hesablanmır. Təxmin edilən faydalı istifadə müddətləri aşağıdakı kimidir:

| | |
|---|---|
| Binalar | 20 il |
| Mebel və qurğular | 5-7 il |
| Digər əsas vəsaitlər | 5 il |
| Komputer və avadanlıqlar | 5-7 il |
| Nəqliyyat vasitələri | 10 il |

***İnvestisiya mülkiyyəti.*** İcarə gəlirlərinin əldə edilməsi və ya qoyulmuş kapitalın dəyərinin artırılması və ya hər iki məqsədə nail olmaq üçün Təşkilat tərəfindən saxlanılan və Təşkilat tərəfindən satışı nəzərdə tutulmayan və ya istehsalat və ya xidmətlərin göstərilməsi üçün istifadə olunmayan mülkiyyətdir. İnvestisiya mülkiyyəti ilkin dəyərində ölçülür. Mülkiyyətdən istifadə hüququ dəyişdikdə, yəni o, əmlak və avadanlıq kimi yenidən təsnifləşdirildikdə, yenidən təsnifləşmə tarixinə mülkiyyətin ədalətli dəyəri gələcək dövrdəki uçot üçün onun ilkin dəyəri kimi qeydə alınır.

***Satış üçün saxlanılan (və ya qrup halında ləğv olunan) uzunmüddətli aktivlər.*** Davamlı istifadədən daha çox satış yolu ilə əvəzinin ödənilməsi nəzərdə tutulan uzunmüddətli aktivlər və ya silinmə qrupları satış üçün saxlanılan aktivlər kimi təsnifləşdirilir. Satış üçün saxlanılan aktivləri təsnifləşdirməzdən öncə, bu aktivlərin və ya silinmə qrupu komponentlərinin Təşkilatın uçot siyasətinə uyğun olaraq yenidən qiymətləndirilməsi vacibdir. Ümumiyyətlə, aktivlər və ya silinmə qrupları onların qalıq dəyəri kimi və ədalətli dəyər çıxılsın satış üçün çəkilmiş xərclərin daha aşağı olanı ilə qiymətləndirilir. Hər hansı bir aktiv satış üçün saxlanılan aktiv kimi təsnifləşdirildikdə və ya satış üçün saxlanılan aktivlər qrupuna daxil edildikdə, əlavə amortizasiya və amortizasiya qaydası qeydə alınmır.

***Digər Təşkilatlara ödəniləcək vəsaitlər.*** Digər Təşkilatlara ödəniləcək vəsaitlər, müxbir Təşkilatlar tərəfindən Təşkilata nağd pul və ya digər aktivlər verildiyi andan qeydə alınır. Qeyri-derivativ maliyyə öhdəlikləri amortizasiya olunmuş maya dəyərində qeydə alınır. Təşkilat verdiyi borcları geri aldıqda, həmin borc öhdəlikləri maliyyə vəziyyəti haqqında hesabatdan silinir və öhdəliyin balans dəyəri ilə ödənilmiş məbləğ arasındakı fərq borcun ödənilməsi üzrə yaranan gəlir və ya xərclərə daxil edilir.

***Ehtiyatlar.*** Təşkilatın keçmiş dövrlərdə baş vermiş hadisə nəticəsində müəyyən hüquqi və ya konstruktiv öhdəliyi olduqda və həmin öhdəliyin ödənilməsi üçün iqtisadi faydaların məxaricinin tələb olunacağı ehtimal olunduqda, ehtiyat maliyyə vəziyyəti haqqında hesabatda əks olunur. Təsiri əhəmiyyətli olduqda, ehtiyatlar pul vəsaitlərinin vaxt baxımından dəyərinin cari bazar qiymətləndirmələrini əks etdirən vergiqoymadan əvvəlki dərəcə və müvafiq olarsa, həmin öhdəliyə aid olan xüsusi risklər əsasında gözlənilən gələcək pul vəsaitlərinin hərəkətinin diskontlaşdırılması yolu ilə müəyyənləşdirilir.

Restrukturlaşdırma üzrə ehtiyat o zaman tanınır ki, Təşkilat ətraflı və rəsmi restrukturlaşdırma planını qəbul etmiş olsun və restrukturlaşdırma ya başlamış, ya da ictimaiyyətə elan edilmiş olsun. Gələcək əməliyyat xərcləri üzrə ehtiyatlar yaradılmır.

***Kreditlə bağlı öhdəliklər.*** Təşkilat adi kommersiya fəaliyyəti çərçivəsində kredit öhdəlikləri, akkreditivlər və zəmanətlər kimi kreditlərlə bağlı öhdəlikləri üzərinə götürür və sair formalarda kredit sığortasını təmin edir. Maliyyə zəmanətləri Təşkilatın təyin olunmuş ödənişləri yaranmış itkilərə görə saxlayana kompensasiya verməyi tələb edən müqavilələrdir, çünki təyin olunmuş debitor borc aləti üzrə göstərilən şərtlərə əsasən vaxtı çatanda ödənişi həyata keçirə bilmir.

Maliyyə zəmanəti öhdəliyi ilkin olaraq uyğun əməliyyat xərcləri çıxmaqla xalis ədalətli dəyərdə tanınır və daha sonra yığılmış amortizasiya və ya zəmanət üzrə itkilər üçün ehtiyatın sonrakı ilkin tanınmış ən yüksək məbləğdən çıxılması ilə qiymətləndirilir. Maliyyə zəmanətləri və sair kreditlə bağlı öhdəliklər üzrə itkilər üçün ehtiyatların tanınması itkilər
ehtimal oluna və əminliklə qiymətləndirilə bildikdə baş verir.

Maliyyə zəmanəti öhdəlikləri və sair şərti kredit öhdəlikləri üzrə ehtiyatlar sair öhdəliklərə daxildir. Aşağıdakı hallar istisna olmaqla, kredit vermək öhdəlikləri uçota alınmır:

- Təşkilatın ədalətli dəyər əsasında mənfəətə və ya zərərə aid etdiyi kredit vermək öhdəlikləri
- Təşkilatın, kredit vermək öhdəlikləri ilə əlaqədar yaranan aktivlərin öhdəlikləri verdikdən sonra qısa müddət ərzində satılmasında təcrübəsi vardırsa, eyni sinfə daxil olan kredit vermək öhdəlikləri derivativ alətlər kimi qəbul edilir
- əvəzi nağd pulla yaxud digər maliyyə alətinin buraxılması ilə ödənilə bilən kredit vermək öhdəlikləri
- krediti bazar faiz dərəcəsindən aşağı faiz dərəcəsi ilə vermək öhdəliyi.

***Nizamnamə kapitalı.***

***Adi səhmlər***
Adi səhmlər kapital kimi təsnifləşdirilir. Adi səhmlərin və səhm opsionların buraxılmasına bilavasitə aid edilə bilən xərclər vergiqoyma baxımından heç bir nəticə olmadan kapitaldan tutulma kimi uçota alınır.

***Dividendlər***

Təşkilatın dividendləri elan edib ödəmək imkanları Azərbaycan Respublikasının qanunvericiliyində müəyyən edilmiş qaydada tənzimlənir. Adi səhmlərə aid olan dividendlər elan edildiyi müddətdə bölüşdürülməmiş mənfəətdə əks olunur.

***Mənfəət vergisi.*** Mənfəət vergisi hazırkı maliyyə hesabatlarında Azərbaycan Respublikasının qüvvədə olan və ya hesabat tarixinə qüvvəyə minmiş Azərbaycan qanunvericiliyinə uyğun olaraq hesablanmışdır. Mənfəət vergisi xərci cari və təxirə salınmış mənfəət vergisindən ibarətdir və bu və ya digər dövrdə vergi təsiri bilavasitə digər məcmu gəlirlərdə və ya kapitalda qeydə alınan əməliyyatlar istisna olmaqla, mənfəət və zərərdə qeydə alınır.

Cari mənfəət vergisi, cari və əvvəlki dövrlər üzrə vergiyə cəlb edilən mənfəət və ya zərər ilə əlaqədar vergi orqanlarına ödəniləcək və ya onlardan geri alınacaq məbləği təşkil edir. Vergiyə cəlb edilən mənfəət və ya zərər maliyyə hesabatlarının müvafiq vergi bəyannamələrinin təqdim olunmasından əvvəl təsdiqləndiyi halda, təxmini göstəricilərə əsasən hesablanır. Mənfəət vergisindən başqa digər vergilər inzibati və digər əməliyyat xərcləri kimi qeydə alınır.

Təxirə salınmış mənfəət vergisi öhdəlik metodundan istifadə etməklə, aktiv və öhdəliklərin vergi bazası və maliyyə hesabatlarının hazırlanması məqsədləri üçün onların balans dəyəri arasında yaranan keçmiş illərin vergi zərəri və bütün müvəqqəti fərqlər üçün hesablanır. İlkin uçot zamanı istisna hal olaraq, əgər əməliyyat maliyyə mənfəəti və vergiyə cəlb edilən mənfəətə təsir göstərmirsə, aktiv və öhdəliyin ilkin qeydə alınması nəticəsində yaranan müvəqqəti fərqlər üzrə təxirə salınmış vergi hesablanmır (biznes birləşməsi halları istisna olmaqla).

Təxirə salınmış vergi qalıqları, qüvvədə olan və ya hesabat dövrünün sonunda qüvvəyə minmiş vergi dərəcələrinə əsasən müvəqqəti fərqlərin qaytarılacağı və ya keçmiş illərdən yığılmış vergi zərərlərinin istifadə ediləcəyi dövrdə tətbiq edilməli vergi dərəcələrindən istifadə etməklə hesablanır. Gəlirdən çıxılan müvəqqəti fərqlər üzrə təxirə salınmış vergi aktivləri və keçmiş illərin vergi zərərləri o zaman hesablanır ki, bu çıxılmaların realizasiya oluna bilməsi üçün gələcəkdə kifayət qədər vergiyə cəlb ediləcək mənfəətin mövcudluğu ehtimal edilsin.

***Qeyd:*** Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 102.1.22 - maddəsinə uyğun olaraq fiziki şəxslərin investisiya qiymətli kağızları üzrə ödənilən dividendlər 2016-cı ilin fevral ayından etibarən 7-il müddətinə vergidən azaddır.

***Gəlir və xərclərin uçotu.*** Faiz gəlirlərinin və xərclərinin uçotu mənfəətdə və ya zərərdə effektiv faiz üsulu ilə aparılır.

Kreditlərin rəsmiləşdirilməsi haqları, kreditlərin xidmət olunması haqları və kreditin ümumi mənfəətliliyini təmin edən sair haqlar, müvafiq əməliyyat xərcləri ilə birlikdə təxirə salınaraq effektiv faiz üsulu ilə maliyyə aktivin təxmin edilən faydalı istifadə müddəti üzrə faiz gəlirlərində amortizasiya olunur. Sair haqlar, komissiya haqları və digər gəlir və xərc maddələri mənfəət və ya zərərdə müvafiq xidmətlər göstərildiyi zaman əks olunur.

**Faiz gəlirlərinin tanınması**

***Effektiv faiz dərəcəsi metodu***

Amortizasiya edilmiş maya dəyərilə, eləcə də mənfəət və ya zərər hesabına ədalətli dəyərlə tanınan bütün maliyyə alətləri üçün faiz dərəcələri effektiv faiz dərəcəsi (EFD) metodundan istifadə etməklə tətbiq olunur.

Faiz hesablanan maliyyə aktivlərinin faiz gəlirləri MHBS 9 əsasında digər məcmu gəlirlər hesabına ədalətli dəyərlə ölçülür, buna oxşar olaraq MUBS 39 əsasında satıla bilən və ödəniş tarixinədək saxlanılan kateqoriyaları üzrə qruplaşdırılan və faiz hesablanan maliyyə aktivləri də EFD metodundan istifadə edilməklə təyin olunur. EFD maliyyə alətinin gözlənilən istifadə müddəti ərzində və ya daha qısa müddətə, maliyyə alətinin xalis qalıq dəyərinə qədər ehtimal olunan gələcək kassa daxilolmalarına tabe tutulan faizdir.

EFD (həmçinin, aktivin amortizasiya olunmuş dəyəri) satın alma zamanı hər hansı endirim və ya premium, EFD-nin daxili hissəsi olan haqq və dəyərlər nəzərə alınmaqla hesablanır. Təşkilat kreditin gözlənilən istifadə müddəti ərzində sabit geri qayıtma faizinin ən yaxşı təxminini istifadə etməklə faiz gəlirlərini tanıyır. Buna görə də Təşkilat müxtəlif mərhələlərdə tətbiq olunan fərqli faiz dərəcələrinin və məhsulun digər xarakteristikalarının istifadə dövrünün (ön ödəmələr, faiz cərimələri və ödənişləri daxil olmaqla) təsirlərini nəzərə alır.

Əgər maliyyə aktivlərində pul vəsaitlərinin axını ilə əlaqədar olan gözləntilər kredit riskindən başqa hər hansı bir səbəbə görə yenidən nəzərdən keçirilərsə düzəliş faiz gəlirlərində artma və azalma ilə birlikdə balans hesabatına aktivin qalıq dəyərində müsbət və ya mənfi düzəliş olaraq qeyd olunur.

İcbari olaraq mənfəət və ya zərər hesabına ədalətli dəyərlə ölçülməsi tələb olunan bütün satış aktivləri və maliyyə aktivlərinin faiz gəlirləri, müqavilə faiz dərəcələri, xalis satış gəlirlərində və maliyyə aktivlərində xalis gəlir/(zərər) mənfəət və zərər vasitəsilə ədalətli dəyər istifadə olunmaqla tanınır.

***Xarici valyuta əməliyyatları.*** Təşkilatın funksional valyutası onun fəaliyyət göstərdiyi əsas iqtisadi mühitin valyutası hesab edilir. Təşkilatın funksional və hesabat valyutası Azərbaycan Respublikasının milli valyutası olan Azərbaycan Manatıdır ("AZN").

Monetar aktiv və öhdəliklər, ARMB-nin müvafiq hesabat tarixinə qüvvədə olan rəsmi valyuta məzənnəsinə əsasən Təşkilatın funksional valyutasına çevrilir. Bu cür əməliyyatlar üzrə hesablaşmaların həyata keçirilməsi və ARMB-nin ilin sonuna olan rəsmi valyuta məzənnəsi ilə monetar aktiv və öhdəliklərin funksional valyutaya çevrilməsi nəticəsində yaranan müsbət və mənfi məzənnə fərqləri mənfəət və zərər hesabatında qeydə alınır.

İlin sonuna qüvvədə olan valyuta məzənnəsi ilə yerli valyutaya çevrilmə qeyri-monetar maddələrə, o cümlədən pay alətlərinə tətbiq edilmir. Məzənnə dəyişikliklərinin pay qiymətli kağızların ədalətli dəyərinə təsiri ədalətli dəyər üzrə yenidən qiymətləndirmə nəticəsində gəlir və ya xərclərin bir hissəsi kimi qeydə alınır.

31 dekabr 2023-cü il tarixinə xarici valyuta qalıqlarının çevrilməsində istifadə olunan əsas valyuta məzənnələri: 1 ABŞ Dolları = 1.7000 AZN (31 dekabr 2022-ci il tarixinə: 1 ABŞ Dolları = 1.7000 AZN).

***Səhm üzrə mənfəət.*** İmtiyazlı səhmlər geri qaytarılan deyil və kapitalda iştirak hüququ verən səhmlər kimi nəzərdən keçirilir. Səhm üzrə gəlir Təşkilatın sahibkarlarına aid olan mənfəət və ya zərərin hesabat ili ərzində dövriyyədə olan kapitalda iştirak hüququ verən səhmlərin orta miqdarına bölünməsi ilə müəyyən olunur.

***İşçilərə sərf olunan xərclər və müvafiq ayırmalar.*** Əmək haqları, məvaciblər, Azərbaycan Respublikası Dövlət Sosial Müdafiə Fonduna ödənişlər, məzuniyyət və bülletenlər üzrə illik ödənişlər, mükafatlar və pul şəklində olmayan imtiyazlar Təşkilatın işçiləri tərəfindən müvafiq xidmətlər göstərildikdə hesablanır.

## 4. Yeni və Yenidən İşlənmiş Standartların və Onlara Dair Şərhlərin Tədbiqi

Cari ildə Cəmiyyət Beynəlxalq Mühasibat Uçotu Standartları Şurası (bundan sonra MUBSŞ) və MUBSŞ-nin Beynəlxalq Maliyyə Hesabatlarının Şərhləri Komitəsi (bundan sonra MHBŞK) tərəfindən qəbul edilmiş, Cəmiyyətin fəaliyyəti üçün münasib olan və 31 dekabr 2023-cü il tarixində tamamlanan hesabat dövrünə şamil olunan bütün yeni və yenidən işlənilmiş standartları və onlara dair şərhləri qəbul etmişdir. Bu yeni standart və şərhlərin qəbul edilməsi Cəmiyyətin mühasibat uçotu siyasətinə, yəni cari və ya əvvəlki illər üzrə hesabat verilən məbləğlərə əhəmiyyətli təsirlər göstərməmişdir.

Beynəlxalq Mühasibat Uçotu Standartları Şurası (BMUSŞ), Banklararası təklif olunan faiz həddi ("IBOR") üzrə aparılan islahatların maliyyə hesabatlılığı üzrə yarana biləcək potensial təsirinə cavab olaraq, "Baza Faiz Dərəcəsi İslahatı"nı (9 saylı MHBS, 39 saylı BMUS və 7 saylı MHBS-ə edilmiş Düzəlişləri) dərc etmişdir. İslahatlar hedcinq edilmiş maddənin və ya hedcinq alətinin göstəricilərinə əsaslanan pul axınlarının vaxtı və/və ya məbləği ilə bağlı qeyri-müəyyənliyə səbəb olarsa, hedcinq əlaqəsi təsirə məruz qalır. Bu düzəlişlərin heç bir faiz dərəcəsi hedcinq əlaqəsi olmadığı üçün Cəmiyyətin maliyyə hesabatlarına təsiri yoxdur.

**3 saylı MHBS Müəssisələrin Birləşməsi.** "Müəssisə" tərifinə edilən Düzəliş – Düzəlişlər şirkətlərə əldə edilmiş aktivlərin müəssisə və ya aktivlər qrupu olduğunu müəyyənləşdirməyə kömək edəcək.

Edilmiş düzəliş biznes xidmətlərinin nəticələrinin müştəriləri məhsul və xidmətlər ilə təmin etmək olduğunu vurğulayır. Halbuki əvvəlki anlayışa əsasən, biznes anlayışı dividend şəklində, daha aşağı xərclərə və ya investorlara və digərlərinə iqtisadi mənfəət təmin etmək məqsədi daşıyırdı.

Alınan aktivin müəssisə və ya aktivlər qrupu olduğunu fərqləndirmək vacibdir, çünki, alıcı qudvili yalnız biznes alarkən tanıyır. Dəyişikliklərə əsasən, "biznes"in yeni tərifi müştərilərə məhsul və ya xidmətlərin göstərilməsi, investisiya gəlirinin yaranması (məsələn, dividendlər və faizlər) və ya adi fəaliyyətdən digər gəlirlər yaranmasının ayrılmaz tərkib hissəsidir.

"Əhəmiyyətlilik" anlayışının yeni tərifi – MUBSŞ şirkətlərin əhəmiyyətliliklə bağlı qərarları daha asan verməsi üçün əhəmiyyətlilik prinsipinə düzəlişlər dərc etmişdir. Yeni dəyişikliklər 1 saylı BMUS "Maliyyə Hesabatlarının Təqdimatı" və 8 saylı BMUS "Mühasibat Uçotu Qaydaları, Uçot Ehtimallarındakı Dəyişikliklər və Xətalar"a şamil edilir.

Dəyişikliklər əhəmiyyətliliyin tərifini və bu günə qədər MHBS-in digər standartlarında göstərilmiş olan əhəmiyyətlilik prinsiplərinin tətbiqi ilə bağlı təlimatları da hesabat hazırlayanlar üçün aydınlaşdırır. Yeni tərifə əsasən, məlumat o zaman əhəmiyyətli sayılır ki, onun gizlədilməsi, təhrif edilməsi və ya dəyişdirilməsinin maliyyə hesabatlarını ümumi məqsədlər üçün istifadə edən əsas tərəflərin qərarlarına təsir etməsi ehtimal edilir və bu məlumat hesabat hazırlayan konkret müəssisə üzrə maliyyə məlumatı xarakterinə malikdir.

**15 may 2020-ci ildə BMUSŞ tərəfindən "COVİD-19 ilə əlaqəli İcarə Güzəştləri** (16 saylı MHBS-ə edilmiş Düzəliş)"nə icarəçilərin COVİD-19 ilə əlaqəli icarə güzəştinin icarə modifikasiyası olubolmadığının qiymətləndirilməsinə dair güzəşt ilə təmin edilməsi düzəlişi edilmişdir.

COVİD-19 ilə əlaqəli İcarə Güzəştləri üzrə dəyişikliklər (16 saylı MHBS-ə edilmiş düzəliş) 16 saylı MHBS-ə aşağıdakı düzəlişləri etmişdir:

- icarəçilərin COVİD-19 ilə əlaqəli icarə güzəştinin icarə modifikasiyası olub-olmadığının qiymətləndirilməsinə dair güzəşt ilə təmin edilməsi;
- güzəşt tətbiq edən icarəçilərdən, icarə modifikasiyası olmadığı kimi, COVID-19 ilə əlaqəli icarə güzəştlərini hesaba vermələrini tələb etmək;
- güzəşt tətbiq edən icarəçilərdən bu faktı açıqlamalarını tələb etmək; və
- icarəçilərdən 8 saylı BMUS-a uyğun olaraq güzəşt tədbirlərini retrospektiv şəkildə tətbiq etmələrini tələb etmək, əvvəlki dövr rəqəmlərini yenidən təkrar etmələrini tələb etməmək.

Dəyişikliklər 1 yanvar 2020-ci il tarixindən etibarən qüvvədədir. Erkən tətbiqinə icazə verilir. Bu standartın qəbul edilməsi maliyyə hesabatlarına hər hansı bir formada təsir etməmişdir.

Əksi qeyd olunmadığı halda, yeni standartların Cəmiyyətin maliyyə hesabatlarına əhəmiyyətli dərəcədə təsir göstərməsi gözlənilmir.

Hazırki maliyyə hesabatlarının təsdiq edilməsi tarixində Cəmiyyət tərəfindən, qüvvəyə minmə tarixindən əvvəl qəbul edilmişstandart və şərhlərdən əlavə, aşağıda göstərilən standart və şərhlər dərc edilmiş, lakin qüvvəyə minməmişdir.

**17 saylı MHBS "Sığorta müqavilələri"** 2017-ci ilin may ayında dərc olunmuşdur və 4 saylı MHBS "Sığorta müqavilələri"ni əvəz edir. Yeni standart sığorta müqavilələrinin tanınması, ölçülməsi, təqdim edilməsi və açıqlanması prinsiplərini müəyyən edir. Müəssisə buraxdığı təkrarsığorta müqavilələri də daxil olmaqla sığorta müqavilələrinə; əlində olan təkrarsığorta müqavilələrinə; imtiyazlı iştirak xüsusiyyətləri ilə buraxdığı investisiya müqavilələrinə; müəssisənin bağladığı sığorta müqavilərinə 17 saylı MHBS "Sığorta müqavilələri"ni tətbiq etməlidir. 17 saylı MHBS, 2023-cü il yanvarın 1-də və ya ondan sonra başlayan illik hesabat dövrləri üçün qüvvədədir. 15 saylı MHBS "Müştərilərlə Müqavilələrdən Əldə Edilən Gəlir" və 9 saylı MHBS "Maliyyə Alətləri" standartları ilə birlikdə tətbiq olunduğu təqdirdə, erkən tətbiqinə icazə verilir.

**Öhdəliklərin təsnifatına aydınlıq gətirilməsi ilə bağlı 1 saylı BMUS üzrə Düzəlişlər** – 2020-ci il yanvar ayında BMUSŞ "Cari və Uzunmüddətli olmaqla, Öhdəliklərin Təsnifatı (1 saylı BMUS üzrə Düzəlişlər)"nı dərc etmişdir. Düzəlişlər öhdəliklərin 1 saylı BMUS-a əsasən, hesabat tarixinə müqavilə razılaşmaları üzrə təsnifatına daha ümumi yanaşma təklif edir. Öhdəliklərin cari və uzunmüddətli olmaqla təsnifatı üzrə düzəlişlər (1 saylı BMUS üzrə Düzəlişlər) aktiv, öhdəlik üzrə gəlirlərin və ya xərclərin tanınma müddətinə və ya məbləğinə, eləcə də bu anlayışlar üzrə müəssisənin təqdim etdiyi açıqlamalara deyil, yalnız öhdəliklərin maliyyə vəziyyəti haqqında hesabatdakı təqdimatına təsir edir.

Düzəlişlər 1 yanvar 2023-cü il tarixində və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvədədir və retrospektiv şəkildə tətbiq olunmalıdır. Düzəlişlərin erkən tətbiqinə icazə verilir.

**Maliyyə Uçotunun Konseptual Əsaslarına İstinad – 3 saylı MHBS-ə edilmiş Düzəliş** - 2020-ci ilin may ayında BMUSŞ tərəfindən 3 saylı MHBS "Müəssisələrin birləşməsi" standartına düzəliş dərc edilmişdir. Düzəliş 2018-ci ilin mart ayında dərc edilmiş Maliyyə Hesabatlılığının Konseptual Əsaslarına istinad ilə birlikdə, bu düzəlişin tələblərini əhəmiyyətli dərəcədə dəyişmədən, 1989-cu ildə dərc edilmiş Maliyyə Hesabatlarının Hazırlanması və Təqdimatın Əsaslarına edilən istinadın əvəz olunmasını nəzərdə tutur. Şura eyni zamanda, 37 saylı BMUS və ya 21 saylı BMHŞK "Təminatlar" çərçivəsində, ayrı olaraq yaranırsa, borclar və şərti öhdəliklər üçün yaranan potensial '2 gün' mənfəət və ya zərərlərindən yayınmaq üçün 3 saylı MHBS-in tanınma prinsipinə istisna da əlavə etmişdir. Eyni zamanda, Şura Maliyyə Hesabatlarının Hazırlanması və Təqdim Olunması Əsaslarına istinadın əvəz edilməsindən təsirlənməyəcək şərti aktivlər üçün 3 saylı MHBS-in mövcud təlimatına dair izahlar verməyi qərarlaşdırdı. Dəyişikliklər 1 yanvar 2022-ci il tarixində və ya bu tarixdən sonra başlayan illik hesabat dövrləri üçün qüvvəyə minir və perspektivli şəkildə tətbiq olunur.

**Əmlak, Tikili və Avadanlıqlar: Nəzərdə tutulan İstifadədən əvvəl Daxilolmalar- 16 saylı BMUS-a edilən düzəlişlər.** 2020-ci ilin may ayında, BMUSŞ müəssisələrin əmlak, tikili və avadanlıqların dəyərindən, rəhbərliyin nəzərdə tutduğu qaydada fəaliyyət göstərə bilməsi üçün həmin aktivləri lazımi yerə və şəraitə çatdırarkən istehsal olunan aktivlərin satışından əldə olunan gəlirləri çıxmağı qadağan edən "Əmlak, Tikili və Avadanlıqlar – Nəzərdə tutulan İstifadədən əvvəl Daxilolmalar" düzəlişini dərc etmişdir. Bunun əvəzinə, müəssisə bu cür aktivlərin satışından əldə olunan gəlirləri və bu aktivlərin istehsal xərclərini mənfəət və zərər hesabında tanıyır. Dəyişiklik 1 yanvar 2022-ci il tarixində və ya bu tarixdən sonra başlayan illik hesabat dövrləri üçün qüvvəyə minir və müəssisənin düzəlişi ilk dəfə tətbiq etdiyi zaman təqdim olunan ən erkən dövrün başlanğıcında və ya ondan sonra istifadəyə verilə bilən əmlak, tikili və avadanlıqlara retrospektiv şəkildə tətbiq edilməlidir.

**Ağır Şərtli Müqavilələr – Müqavilənin Yerinə Yetirilməsinə dair Xərclər – 37 saylı BMUS-a edilən düzəlişlər.** 2020-ci ilin may ayında, BMUSŞ, 37 saylı BMUS-a müqavilənin ağır şərtli və ya zərər yaradan olduğunu qiymətləndirərkən müəssisənin hansı xərcləri nəzərə alması barədə düzəlişlər etmişdir. Düzəlişlər "birbaşa əlaqəli xərc yanaşması"nı tətbiq edir. Mal və ya xidmətləri təmin etmək üçün birbaşa müqaviləyə aid olan xərclərə həm artan xərclər, həm də müqavilə fəaliyyətləri ilə birbaşa əlaqəli xərclərin bölüşdürülməsi daxildir. Ümumi və inzibati xərclər birbaşa müqavilə ilə əlaqəli deyil və müqavilə üzrə qarşı tərəf üçün açıq şəkildə ödənilməli olmadıqca istisna olunur. Düzəlişlər 1 yanvar 2022-ci il tarixində və ya bu tarixdən sonra başlayan illik hesabat dövrləri üçün qüvvəyə minir.

**1 saylı MHBS "Beynəlxalq Maliyyə Hesabatlılığı Standarlarının İlk dəfə Tətbiqi"** – ilkin tətbiq edən törəmə olaraq. BMUSŞ 2018-2020-ci il üzrə illik təkmilləşdirmələr çərçivəsində 1 saylı MHBSdə "Beynəlxalq Maliyyə Hesabatı Standartlarının ilk dəfə qəbul edilməsi"ndə dəyişiklik etmişdir. Dəyişiklik ana müəssisənin MHBS-ə keçid tarixinə əsasən, ana müəssisə tərəfindən bildirilən məbləğlərdən istifadə etməklə, məcmu çevirmələr üzrə fərqlərini ölçmək üçün 1 saylı MHBS-in D16 (a) bəndini tətbiq etməyi seçən bir törəmə müəssisəyə icazə verir. Bu düzəliş 1 saylı MHBS-in D16 (a) bəndini tətbiq etməyi seçən bir asılı və ya birgə müəssisəyə də tətbiq edilir. Dəyişiklik 1 yanvar 2022-ci il tarixində və ya bu tarixdən sonra başlayan illik hesabat dövrləri üçün qüvvəyə minir.

**9 saylı MHBS Maliyyə Alətləri - Maliyyə öhdəliklərinin silinməsi üzrə "10 faiz" dəyərində test üzrə iştirak haqqı.** MHBS standartları prosesinə 2018-2020-ci illərdə illik təkmilləşdirmələrin bir hissəsi olaraq, BMUSŞ 9 saylı MHBS-ə düzəliş etmişdir. Düzəliş bir müəssisənin yeni və ya dəyişdirilmiş maliyyə öhdəliyinin şərtlərinin ilkin maliyyə öhdəliyinin şərtlərindən əhəmiyyətli dərəcədə fərqli olubolmadığını qiymətləndirərkən əlavə etdiyi haqları aydınlaşdırır. Bu rüsumlara yalnız borcalan və ya borcverən tərəfindən başqasının adından ödədiyi və ya aldığı haqlar daxil olmaqla borcalanla borc verən arasında ödənilən və ya alınan ödənişlər daxildir. Müəssisə düzəlişi müəssisənin ilk dəfə tətbiq etdiyi illik hesabat dövrünün əvvəlində və ya ondan sonra dəyişdirilmiş və ya mübadilə edilmiş maliyyə öhdəliklərinə tətbiq edir. Düzəliş 1 yanvar 2022-ci il tarixində və ya bu tarixdən sonra başlayan illik hesabat dövrləri üçün qüvvəyə minir. Cəmiyyət müəssisənin bu düzəlişin ilk tətbiq olunduğu illik hesabat dövrünün əvvəlində və ya ondan sonra dəyişdirilən və ya mübadilə edilən maliyyə öhdəliklərinə düzəlişləri tətbiq edəcəkdir.

**"41 saylı BMUS Kənd Təsərrüfatı" – Ədalətli dəyər ölçmələrində vergi.** MHBS standartları prosesinə 2018-2020-ci illərdə illik təkmilləşdirmələrin bir hissəsi olaraq, BMUSŞ 41 saylı BMUS Kənd Təsərrüfatı Standartına dəyişiklik etmişdir. Dəyişiklik 41 saylı BMUS-un 22-ci bəndində müəssisələrin, 41 saylı BMUS çərçivəsində aktivlərin ədalətli dəyərini ölçərkən vergitutma üçün pul axınlarını istisna etməsi tələbini aradan qaldırır. Müəssisə düzəlişləri 1 yanvar 2022-ci il tarixində və ya bu tarixdən sonra başlayan ilk illik hesabat dövrünün başlanğıcında və ya bu tarixdən sonra ədalətli dəyər ölçmələrinə perspektivli şəkildə tətbiq edir. Düzəlişin erkən tətbiqinə icazə verilir. Dəyişikliklərin Cəmiyyətə maddi təsir göstərəcəyi gözlənilmir.

**10 saylı MHBS "Konsolidə Edilmiş Maliyyə Hesabatları" və 28 saylı BMUS (düzəlişlər): "İnvestor və onun Asılı və ya Birgə Müəssisəsi arasında Aktivlərin Satışı və ya Ötürülməsi"**–10 saylı MHBS və 28 saylı BMUS-a edilən düzəlişlər investor, onun asılı müəssisəsi və birgə müəssisə arasında aktivlərin satışı və ya ötürülməsi üzrə vəziyyəti ehtiva edir. Düzəlişlər xüsusi olaraq kapital metodu ilə konsolidasiya edilən əlaqəli və birgə müəssisələrlə biznes əməliyyatları aparmayan törəmə müəssisə üzərində nəzarətin itirilməsi ilə bağlı olan gəlir və zərərlərin, ana müəssisənin mənfəət və zərər hesabatında əlaqəsi olmayan investorun həmin əlaqəli və ya birgə müəssisədə olan payına düşən hissəyə müdaxilə etməmək şərtilə tanınmasını tələb edir. Eynilə, istənilən keçmiş törəmə müəssisədə (kapital metodu ilə konsolidasiya edilən assosiasiya və birgə müəssisəyə çevrildikdə) saxlanılan investisiyanın ədalətli dəyərlə yenidən ölçülməsindən irəli gələn gəlir və ya zərər yalnız əlaqəsi olmayan investorların yeni assosiasiya və ya birgə müəssisədəki payları müqabilində tanınır. Düzəlişlərin qüvvəyə minmə tarixi hələ ki, MUBSŞ tərəfindən müəyyən edilməmişdir; lakin düzəlişlərin erkən tətbiqinə icazə verilir.

Əksi qeyd olunmadığı halda, yeni standartların Cəmiyyətin maliyyə hesabatlarına əhəmiyyətli dərəcədə təsir göstərməsi gözlənilmir.

## 5. Uçot siyasətinin tətbiqi zamanı əhəmiyyətli ehtimallar və mülahizələr

**Gözlənilən kredit zərərlərinin qiymətləndirilməsi**

Gözlənilən kredit zərərlərinin qiymətləndirilməsi müvafiq metodologiya, modellər və ilkin məlumatlardan istifadə etməklə aparılan əhəmiyyətli hesablamadır.Aşağıdakı komponentlər kredit zərərləri üzrə ehtiyata əhəmiyyətli dərəcədə təsir göstərir: defolt, kredit riskinin əhəmiyyətli dərəcədə artması (KRƏA), defolt ehtimalı (DE), defolta məruz qalan dəyər (DMQD), defolt baş verəcəyi halda itirilməsi gözlənilən məbləğ (DHZ), eləcə də makroiqtisadi ssenarilər. Cəmiyyət gözlənilən kredit zərərləri üzrə ehtimallar və faktiki kredit zərərləri arasındakı fərqlərin azaldılması məqsədilə modelləri və modellər üzrə məlumatları müntəzəm olaraq təhlil edir və təsdiqləyir.

**Kredit riskinin əhəmiyyətli dərəcədə artması**

Kredit riskinin əhəmiyyətli dərəcədə artması ilə bağlı qiymətləndirmə aparmaq üçün Cəmiyyət hesabat və ilkin tanınma tarixlərinə maliyyə aktivi üzrə hesablanmış müvafiq defolt risklərini müqayisə edir. Qiymətləndirmə zamanı hesabat tarixinə kredit riskinin müəyyən səviyyəsi deyil, kredit riskinin nisbətən artması nəzərdən keçirilir. Cəmiyyət əldə olunması əlavə xərc tələb etməyən dəstəkləyici və əsaslandırılmış məlumatları, o cümlədən müəyyən müştəri portfellərinin davranış aspektləri daxil olmaqla, bir sıra amilləri nəzərə alır. Cəmiyyət defolt anına qədər kredit riskinin artması ilə bağlı davranış əlamətlərini müəyyən müəyyən edir və müvafiq proqnoz məlumatlarını fərdi maliyyə aləti və ya portfel səviyyəsində kredit riskinin qiymətləndirilməsində istifadə edir.

**Biznes modelin qiymətləndirilməsi**

Maliyyə aktivləri biznes model əsasında təsnifləşdirilir. Biznes modeli qiymətləndirərkən rəhbərlik birləşmə səviyyəsini və maliyyə alətləri üzrə portfelləri müəyyən etmək üçün mülahizələrdən istifadə etmişdir. Satış əməliyyatlarını qiymətləndirərkən Cəmiyyət onların əvvəlki dövrlərdə baş vermə tezliyini, müddətini və dəyərini, satış səbəblərini və gələcək satışlar ilə bağlı gözləntiləri nəzərə alır. Kredit keyfiyyətinin pisləşməsinə görə potensial zərərlərin azaldılmasına yönəldilmiş satış əməliyyatları "pul axınlarının əldə edilməsi" biznes modelinə uyğun hesab edilir. Kredit riskinin idarə olunması tədbirləri ilə bağlı olmayan ödəmə müddətinə qədər həyata keçirilən digər satışlar da nadir hallarda baş verməsi və dəyərinin ayrılıqda və ya məcmu olaraq əhəmiyyətli olmaması şərtilə, "pul axınlarının əldə edilməsi" biznes modelinə uyğun hesab edilir.

Cəmiyyət satış əməliyyatlarının əhəmiyyətini satışların həcmi ilə portfelin orta müddəti ərzində biznes modeli qiymətləndirilən portfelin dəyərini müqayisə etməklə qiymətləndirir. Bundan əlavə, yalnız "stress" ssenarilərdə və ya Cəmiyyətin nəzarətində olmayan, təkrar baş verməyən və Cəmiyyət tərəfindən proqnozalşdırıla bilməyən ayrıca hadisə ilə bağlı gözlənilən maliyyə aktivlərinin satışı biznes modelin məqsədi ilə əlaqəli olmayan satış əməliyyatı hesab olunur və müvafiq maliyyə aktivlərinin təsnifatına təsir göstərmir.

"Pul axınlarının əldə edilməsi və satılması" biznes modelində aktivlərin pul axınlarının əldə edilməsi üçün saxlanılması nəzərdə tutulsa da, aktivlərin biznes modelin məqsədlərinə (likvidlik ehtiyaclarının idarə olunması, müəyyən faiz gəlirlərinin əldə edilməsi və ya maliyyə aktivlərinin müddətinin həmin aktivlərin maliyyələşdirdiyi öhdəliklərin müddəti ilə uyğunlaşdırılması) nail olmaq üçün satışı onun tərkib hissəsi hesab edilir.

Digər kateqoriyaya əsasən satış vasitəsilə mənfəət əldə etmək üçün nağd pul axınlarının reallaşdırılması məqsədilə idarə olunan maliyyə aktivləri üzrə portfellər daxildir. Bu biznes model adətən müqavilədə nəzərdə tutulan pul axınlarının əldə edilməsi ilə əlaqəlidir.

**Pul axınlarının yalnız əsas məbləğ və faiz ödənişləri ("YƏMFÖ") meyarına uyğunluğunun qiymətləndirilməsi**

Maliyyə aktivi üzrə pul axınlarının yalnız əsas borc və faiz ödənişləri meyarına uyğunluğunu müəyyən etmək üçün mülahizələrin irəli sürülməsi tələb edilir.

Cəmiyyət müqavilə üzrə nağd pul axınlarının müddətini və ya məbləğini dəyişən müqavilə şərtlərini müəyyən etmiş və nəzərdən keçirmişdir. Nağd pul axınları o halda yalnız əsas borc və faiz ödənişləri meyarına uyğun hesab edilir ki, kreditin şərtlərinə görə onu vaxtından əvvəl ödəmək mümkün olsun, vaxtından əvvəl ödənilən məbləğ əsas borcu və hesablanmış faizləri, eləcə də müqaviləyə vaxtından əvvəl xitam verilməsinə görə əsaslandırılmış əlavə kompensasiyanı özündə əks etdirsin.

Aktiv üzrə əsas məbləğ əsas borc üzrə sonrakı ödənişlər (yəni, effektiv faiz metodundan istifadə etməklə müəyyən edilmiş faizsiz ödənişləri) çıxılmaqla, ilkin tanınma zamanı ədalətli dəyərə bərabərdir. Bu qaydada istisna hal olaraq standart, həmçinin qabaqcadan ödəniş elementlərinə malik olan alətlərə yalnız əsas borc və faiz ödənişləri meyarına uyğun olmaq üçün aşağıdakı şərtlərə cavab verməyə imkan yaradır:

(i) aktiv mükafat və ya güzəştlə verildikdə (ii) qabaqcadan ödəniş məbləği müqavilə üzrə nominal dəyərdən və hesablanmış faizlərdən, eləcə də müqaviləyə vaxtından əvvəl xitam verilməsinə görə əsaslandırılmış əlavə kompensasiyadan ibarət olduqda və (ii) ilkin tanınma zamanı vaxtından əvvəl ödəniş elementinin ədalətli dəyəri əhəmiyyətsiz olduqda.

**Pul axınlarının yalnız əsas məbləğ və faiz ödənişləri ("YƏMFÖ") meyarına uyğunluğunun qiymətləndirilməsi (davamı)**

Cəmiyyətin kredit müqavilələri makroiqtisadi və ya normativ şərtlərdəki müəyyən dəyişikliklərə cavab olaraq faiz dərəcələrinin tənzimlənməsinə imkan verir. Rəhbərliyin öz mülahizəsi və qiymətləndirməsinə görə, bank sektorundakı rəqabət və borcalanların kreditləri yenidən maliyyələşdirmək qabiliyyəti faiz dərəcələrini bazar səviyyəsindən daha yuxarı müəyyən etməsinə mane olur və buna görə də pul axınları YƏMFÖ meyarına uyğun qiymətləndirilir.

Bazel I standartlarına əsasən, qeyri-kumulyativ ehtiyata malik ödənilməyən imtiyazlı səhmlər 1-ci səviyyəli kapitalın tərkib hissəsi hesab olunur. Təşkilat eyni xarakterli imtiyazlı səhmlərə sahibdir və onları 1-ci səviyyəli kapital əmsalının hesablanmasına əlavə etmişdir.

Ödənilməyən məcmu imtiyazlı səhmlərin sahibləri öz səhmlərinin nominal dəyəri üzrə illik 12% minimum məcmu dividend əldə edirlər. Bütün səhmlər qalıq aktivlərlə münasibətdə eyni dərəcəyə malikdirlər, lakin imtiyazlı səhmdarlar vaxtı keçmiş dividendlər üzrə düzəliş edilmiş səhmlərin balans dəyəri həcmində iştirak hüququna malik olurlar.

## 25. Digər öhdəliklər

| | 31 dekabr 2023-cü il | 31 dekabr 2022-ci il |
|---|---|---|
| Plastik kartlarla əməliyyatlar üzrə müvəqqəti hesablar | 5 | 4 |
| İşçilərə ödəniləcək məbləğlər | 185 | 160 |
| İmtiyazlı səhmlər üzrə ödəniləcək dividendlər | 4,753 | 3,958 |
| Mənfəət vergisindən başqa digər ödəniləcək vergilər | - | - |
| DSMF | 22 | 19 |
| Ödəniş sistemlərinin operatorları ilə hesablaşmalar | 91 | 91 |
| Sair ödəniləcək məbləğlər | 16 | 16 |
| **Cəmi digər öhdəliklər** | **5,072** | **4,248** |

## 26. Vəsaitin istifadə hüququ və icarə öhdəlikləri

| Vəsaitin istifadə hüququ ilkin dəyərdə | Ofis binaları | Cəmi aktivlərdən istifadə hüququ |
|---|---|---|
| **1 Yanvar 2023** | **98** | **98** |
| Əlavələr/silinmələr | (17) | (17) |
| **31 Dekabr 2023** | **81** | **81** |
| **Yığılmış amortizasiya** | | |
| **1 Yanvar 2023** | **(11)** | **(11)** |
| Amortizasiya xərcləri | (24) | (24) |
| **31 Dekabr 2023** | **(35)** | **(35)** |
| **Xalis qalıq dəyəri** | | |
| **31 Dekabr 2023** | **46** | **46** |

**İcarə öhdəlikləri**

| | |
|---|---|
| Qısamüddətli icarə öhdəlikləri | 18 |
| Uzunmüddətli icarə öhdəlikləri | 27 |
| **Cəmi icarə öhdəlikləri** | **45** |

31 dekabr 2023-cü il tarixinə, gələcək minimum icarə ödənişləri aşağıdakı kimidir:

| | Gözlənilən minimal icarə ödənişləri | | | |
|---|---|---|---|---|
| | 1 il ərzində | 1 ildən 10 ilə qədər | 5 ildən 10 ilə qədər | Cəmi |
| İcarə ödənişləri | 18 | 27 | - | 45 |
| Maliyyə xərcləri | 0 | 0 | - | 0 |
| **31 Dekabr 2023-cü il üzrə xalis cari dəyər** | **18** | **27** | **-** | **45** |

İlin əvvəlinə və sonuna olan icarə öhdəlikləri üzrə məbləğlərin maliyyələşdirmə fəaliyyətindən müvafiq nağd və nağdsız dəyişikliklərlə üzləşdirilməsi aşağıdakı kimidir:

| | Məbləğ |
|---|---|
| **1 Yanvar 2023** | **85** |
| **Pul axınları** | |
| Əsas məbləğin ödənilməsi | (65) |
| Ödənilmiş faiz | (1) |
| **Nağdsız dəyişikliklər** | |
| Yeni icarələr | 25 |
| Faiz xərcləri | 1 |
| **31 Dekabr 2023** | **45** |

## 27. Nizamnamə kapitali və ehtiyatlar

Buraxılmış və dövriyyədə olan nizamnamə kapitalı 146 min (2022: 146 min) olan adi səhmdən ibarətdir. Hər bir səhmin nominal dəyəri 200 AZN təşkil edir. 2023-cü ildə heç bir (2022: sıfır) adi səhm buraxılmamışdır. Adi səhmdarların elan edilən dividendləri almaq və Təşkilatın illik və ümumi yığıncaqlarında hər bir səhmə görə bir səs vermək hüququ vardır.

Təşkilatın nizamnamə kapitalı səhmdarlar tərəfindən AZN-də ödənilmişdir və onlar dividendlər almaq və digər kapital bölüşdürmələrindən yararlanmaq hüququna malikdirlər. Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq, Təşkilatın səhmdarları aşağıda göstərilən hüquqlara malik olmalıdır:

- Təşkilatın idarə edilməsində iştirak etmək, onun rəhbərliyinə və icra strukturlarına müvafiq əməkdaşları seçmək və bu strukturlara seçilmək, Təşkilatın fəaliyyətinə dair məlumat toplamaq, ildə bir dəfə illik hesabatlarla və maliyyə göstəriciləri ilə tanış olmaq, səhmdarların ümumi yığıncağının keçirilməsini tələb etmək, Təşkilat səhmdarlarının ümumi yığıncağının gündəliyinə əlavələrin edilməsini tələb etmək, Təşkilat fəaliyyətinin auditini tələb etmək və Təşkilat fəaliyyətini dayandırılması halında öhdəliklərin və kreditlərin və yığılmış lakin ödənilməmiş dividendlərin ödənilməsindən sonra Təşkilat aktivlərinin qalan hissəsindən pay almaq.

### Ehtiyatların xarakteri və məqsədi

**Binalar üçün yenidən qiymətləndirmə ehtiyatı**

Binalar üçün yenidən qiymətləndirmə ehtiyatı aktivlərin tanınmasının dayandırılması və ya dəyərsizləşməsinə qədər binaların yenidən qiymətləndirilmiş ümumi müsbət dəyərini əhatə edir.

**Dividendlər**

Ödəniləcək dividendlər Azərbaycan Respublikası qanunvericiliyinə əsasən müəyyənləşdirilən maksimum bölüşdürülməmiş mənfəətə qədər məhdudlaşdırılır. 2023-cü il və 2022-ci illərdə Təşkilat adi səhmlər üzrə heç bir dividend elan etməmişdir

## 28. Təəhhüdlər və şərti öhdəliklər

Vaxtaşırı olaraq və adi fəaliyyətin gedişində Təşkilat müştərilərinin tələbatlarını qarşılamaq məqsədilə balans kənarı risklər yarada biləcək maliyyə alətlərində tərəf kimi çıxış edir. Müxtəlif kredit risklərinə malik bu alətlər maliyyə vəziyyəti hesabatında öz əksini tapmamışdır.

Müştərilərin öhdəliklərini yerinə yetirə bilmədikləri hallarda, girov və zəmanətlərin dəyərsiz olduğu zaman şərti öhdəliklər və təəhhüdlər üzrə Təşkilatın maksimal kredit itkisi, bu maliyyə alətlərini yaradan müqavilələr üzrə göstərilən məbləğlər şəklində təqdim edilir.

Təşkilat balansdan kənar öhdəliklər üzrə maliyyə vəziyyəti hesabatında təqdim edilmiş öhdəliklər üçün tətbiq edilən kredit nəzarət və idarəetmə siyasətindən istifadə edir.

31 dekabr 2023-cü il və 2022-ci il tarixlərinə nominal və ya müqavilə üzrə balansdan kənar öhdəliklər aşağıdakı kimi olmuşdur:

| Şərti öhdəliklər və kredit təəhhüdləri | 31 dekabr 2023-cü il | 31 dekabr 2022-ci il |
|---|---|---|
| Kreditlər və istifadə edilməmiş kredit xətləri üzrə öhdəliklər | - | - |
| Qarantiyalar və bənzəri öhdəliklər | - | - |
| **Cəmi şərti öhdəliklər və kredit təəhhüdləri** | - | - |

Cədvəldə göstərilmiş cəmi müqavilə üzrə şərti öhdəlikləri heç də mütləq gələcək nağd pul vəsaitlərinə tələbatı əks etdirmir, çünki bu şərti öhdəliklərin maliyyələşdirməsi təmin edilmədən müddəti başa çata və ya onlara xitam verilə bilər. Kredit və kredit xətlərinin ayrılmasına dair şərti öhdəliklərin əksəriyyəti Təşkilat tərəfindən şərtsiz öhdəlikləri təşkil etmir.

**Sığorta**

Azərbaycan Respublikasında sığorta sahəsi inkişaf mərhələsindədir və dünyanın digər ölkələrində qəbul edilmiş sığortalamanın bir çox formaları Azərbaycanda hələ mövcud deyil. Təşkilatın əmlak və avadanlıqları, biznes fəaliyyətinin dayanması və ya Təşkilata məxsus olan ərazilərdə və ya onun əməliyyatları ilə əlaqəli baş vermiş hadisələr nəticəsində əmlak və ya ətraf mühitə zərərin vurulması ilə əlaqədar olaraq yaranan üçüncü tərəf məsuliyyətinə dair tam sığorta təminatı yoxdur. Təşkilat tam sığorta təminatı alanadək, müəyyən aktivlərin itirilməsi və ya məhv olunması riski mövcuddur və bu riskin əməliyyatlara və maliyyə vəziyyətinə əhəmiyyətli dərəcədə mənfi təsiri ola bilər.

**Kapital qoyuluşları üzrə öhdəliklər**

31 dekabr 2023-cü il və 31 dekabr 2022-ci il tarixlərinə Təşkilatın kapital qoyuluşları və ya xərclər üzrə hər hansı bir mühüm öhdəliyi olmamışdır.

**Məhkəmə prosedurları**

Vaxtaşırı olaraq və adi fəaliyyətin gedişində müştərilər və üçüncü şəxslər tərəfindən Təşkilata qarşı iddialar irəli sürülür. Təşkilatın rəhbərliyi hesab edir ki, bu iddialarla bağlı heç bir əhəmiyyətli zərər baş verməyəcəkdir və müvafiq olaraq maliyyə hesabatlarında zərərlərin ödənilməsi üçün heç bir ehtiyat yaradılmamışdır.

**Vergi qanunvericiliyi**

Azərbaycan Respublikasının vergi qanunvericiliyindəki müddəalara bəzən müxtəlif şərhlər və dəyişikliklər baş verir və bu dəyişikliklər müxtəlif mənalarda şərh edilə bilər və nəticədə vergi orqanları bu müddəaları özləri hesab etdikləri kimi şərh edə bilərlər. Praktikada, vergi orqanları belə hallarda adətən vergi ödəyicilərinin əleyhinə qərar çıxarırlar ki, nəticədə vergi ödəyiciləri öz hüquqlarını məhkəmə vasitəsilə müdafiə etməyə məcbur olurlar.

Qeyd etmək lazımdır ki, vergi orqanları məhkəmə orqanları tərəfindən təqdim edilmiş "haqsız vergi qazancı", "əməliyyatın əsas kommersiya məqsədi" konsepsiyalarından və "əməliyyatın kommersiya mahiyyəti/(məqsədi)" kriteriyalarından istifadə edə bilərlər.

Belə qeyri-müəyyənliklər, əsasən maliyyə alətlərinin/derivativlərin və transfer qiymətini təyin etmək məqsədilə əməliyyatın bazar qiymətinin istifadə edilməsi zamanı vergi qanunvericiliyinə uyğun olaraq şərhinə aid edilə bilər. Bu hallar eləcə də kreditlər üzrə ehtiyatların yaradılması zamanı yaranan müvəqqəti fərqlərin və bunun vergi öhdəliyinə təsirinin vergi orqanları tərəfindən mənfəət vergisi bazasının bilərəkdən azaldılması kimi şərh edilməsinə aid edilə bilər. Təşkilatın rəhbərliyi əmindir ki, bütün lazımi vergilər hesablanmış, öhdəliklər yaradılmışdır və ona görə də əlavə vergi ehtiyatının yaradılmasına ehtiyac yoxdur.

Ümumiyyətlə, vergi ödəyicilərinin audit tarixindən əvvəlki üç ilə aid maliyyə təsərrüfat fəaliyyəti vergi orqanları tərəfindən yoxlanıla bilər. Bundan əlavə, vergi yoxlamaları başa çatsa belə aparılmış yoxlamaların daha yüksək vergi orqanları tərəfindən yoxlanılması ehtimalı da istisna edilmir.

Həmçinin, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin qərarının müddəalarına əsasən vergi yoxlamasının əhatə etdiyi üç illik limit, məhkəmənin qərarına əsasən vergi ödəyicisinin vergi orqanlarını bilərəkdən yanlış istiqamətləndirdiyi və onlara çaşdırıcı məlumatlar verdiyi hallarda uzadıla bilər.

**Pensiya və təqaüd planları**

İşçilər Azərbaycan Respublikasının qanunvericiliyinə və normativ aktlarına müvafiq olaraq təqaüd müavinətləri alır. 31 dekabr 2023-cü il və 31 dekabr 2022-ci il tarixlərinə Təşkilatın hazırkı və yaxud keçmiş işçiləri üzrə hər hansı bir əlavə təqaüd, təqaüd sonrası tibbi xidmət, sığorta və ya kompensasiya ödənişi üzrə öhdəliyi olmamışdır.

## 29. Əlaqəli tərəflərlə əməliyyatlar

Əlaqəli tərəflər və ya əlaqəli tərəflərlə aparılan əməliyyatlar aşağıdakıları əks etdirir:

a) Tərəflər o zaman əlaqəli hesab olunur ki, onlar bir və ya bir neçə qrupun nəzarəti altında olsun və ya onlardan biri digərinə nəzarət edə bilsin və yaxud maliyyə-təsərrüfat fəaliyyəti ilə bağlı qərar qəbul edərkən digər tərəfə əhəmiyyətli təsir göstərə bilsin. Ehtimal edilən hər hansı bir əlaqəli tərəfi nəzərə alarkən, əlaqənin təkcə hüquqi formasına deyil həmçinin mahiyyətinə diqqət yetirilir.

b) Əlaqəli müəssisələr - Təşkilata əhəmiyyətli təsiri olan, lakin törəmə, birgə müəssisə olmayan müəssisələr;

c) Birgə müəssisələr;

d) Təşkilatın və ya onun ana müəssisəsinin əsas idarəedici heyətinin üzvləri;

e) (a) və (d) bəndlərində qeyd olunan fiziki şəxslərin yaxın qohumları və ya ailə üzvləri

f) (d) və (e) bəndlərində qeyd olunan fiziki şəxslər tərəfindən birgə idarə olunan və ya onlar tərəfindən əhəmiyyətli dərəcədə təsir göstərilə bilən müəssisələr;

g) Təşkilatın  və ya Təşkilatın əlaqəli tərəfi olan hər hansı müəssisənin işçilərinin xeyrinə növbədən kənar ödəniş planları.

Hər bir əlaqəli tərəflə münasibətləri nəzərdən keçirərkən əsas diqqət bu münasibətlərin yalnız hüquqi formasına deyil məzmununa yönəldilir. Təşkilat və onun yuxarıda vurğulanan əlaqəli tərəflər arasındakı əməliyyatların təfərrüatları aşağıda qeyd edilmişdir:

Səhmdarlar istisna olmaqla, İdarə Heyəti və Müşahidə Şurasının üzvləri və digər əlaqəli tərəflər ilə əməliyyatlar üzrə 31 dekabr 2022-ci və 31 dekabr 2021-ci il tarixlərinə olan qalıqlar və orta faiz dərəcələri aşağıda qeyd olunmuşdur:

| | 2023-cü il | Orta effektiv faiz dərəcəsi, % | 2022-ci il | Orta effektiv faiz dərəcəsi, % |
|---|---|---|---|---|
| Verilmiş kreditlər (ümumi) | 4,166 | 22.14 | 4,198 | 19.63 |
| Kreditin dəyərsizləşməsi üzrə ehtiyat | (1) | 22.14 | (1) | 19.63 |

| | 2023-cü il | 2022-ci il |
|---|---|---|
| Əməkdaşların qısamüddətli müavinətləri | 48 | 27 |
| **Cəmi:** | **48** | **27** |

Bu məbləğlərə İdarə Heyəti və Müşahidə Şurasının üzvlərinin nağd pul vəsaitləri gəlirləri daxildir.

Səhmdarlar istisna olmaqla, İdarə Heyəti və Müşahidə Şurasının üzvləri və digər əlaqəli tərəflər ilə əməliyyatlar üzrə 31 dekabr tarixində başa çatmış illərin sonuna olan mənfəət və ya zərər aşağıda qeyd olunur:

| | 2023-cü il | 2022-ci il |
|---|---|---|
| Faiz gəlirləri | 810 | 818 |
| Faiz xərcləri | 1,154 | 1,154 |

## 30. Maliyyə alətlərinin ədalətli dəyəri

Maliyyə alətlərinin təxmin edilən ədalətli dəyəri MUBS 32 "Maliyyə Alətləri: Qeyd və Təqdimat" və MUBS 39 "Maliyyə Alətləri: Tanınma və Ölçülmə" standartlarına uyğun olaraq təqdim edilmişdir. Ədalətli dəyər, məcburi satış və ya ləğv etmə halları istisna olmaqla, maraqlı tərəflər arasında cari əməliyyat zamanı maliyyə alətinin mübadilə edilə bilindiyi məbləği təşkil edir və bu məbləğin ən dəqiq göstəricisi bazar qiymətidir. Burda təqdim edilmiş təxminlər Təşkilatın maliyyə alətini bazar vasitəsilə tam və ya qismən dəyişdirdiyi zaman əldə edəcəyi məbləğlərdən fərqli ola bilər.

Maliyyə aktiv və öhdəliklərinin ədalətli dəyərləri ilə maliyyə vəziyyəti hesabatında təqdim edilmiş qalıq dəyərləri arasındakı müqayisə aşağıda göstərilmişdir:

**Ədalətli dəyərin iyerarxiyası**

Təşkilat ədalətli dəyərləri ölçərkən ilkin göstəricilərin əhəmiyyətliliyini əks etdirən aşağıdakı ədalətli dəyər iyerarxiyasından istifadə edir:

- 1-ci səviyyə: Fəal bazarda eyni bir alət üçün aktiv bazar qiymətləri (nizamlanmamış).
- 2-ci səviyyə: birbaşa (yəni qiymətlər kimi), ya da bilavasitə (yəni qiymətlərdən törəyən) müşahidə oluna bilən, 1-ci səviyyəyə daxil edilmiş kotirovka olunan qiymətdən başqa digər ilkin göstəricilər. Bu kateqoriyaya aşağıdakı amillərdən istifadə etməklə qiymətləndirilən alətlər daxildir: analoji alətlər üçün fəal bazarda tətbiq edilən bazar qiymətləri; analoji alətlər üzrə kifayət qədər fəal hesab olunmayan bazarlarda tətbiq edilən qiymətlər; və ya bütün əhəmiyyətli ilkin göstəricilərin birbaşa, yaxud dolayısı ilə bazar məlumatlarından müşahidə oluna bildiyi sair qiymətləndirmə üsulları.
- 3-cü səviyyə: ilkin göstəricilər müşahidə oluna bilmir. Bu kateqoriyaya aid edilən alətlərin qiymətləndirmə metoduna müşahidə edilə bilən məlumata əsaslanmayan ilkin göstəricilər daxildir və müşahidə edilə bilməyən ilkin göstəricilər həmin alətin qiymətləndirilməsində əhəmiyyətli təsirə malikdir. Bu kateqoriyaya oxşar alətlər üçün kotirovka olunan qiymətlər əsasında qiymətləndirilən alətlər daxildir və bu zaman alətlər arasında fərqi əks etdirmək üçün mühüm müşahidə olunmayan tənzimləmələr və ya mülahizələr tələb olunur.

Aşağıdakı cədvəl ədalətli dəyərində ölçülməyən maliyyə alətlərinin ədalətli dəyərinin hər bir ədalətli dəyər ölçülməsinin 31 dekabr 2023-cü il tarixinə təsnifləşdirildiyi ədalətli dəyər iyerarxiyasındakı səviyyə əsasında təhlil edir:

| | 2-ci səviyyə | 3-cü səviyyə | Cəmi ədalətli dəyəri | Cəmi balans dəyəri |
|---|---|---|---|---|
| Pul vəsaitləri və onların ekvivalentləri | 64 | - | **64** | **64** |
| Sair məcmu gəlirlər vasitəsi ilə ədalətli dəyərdə tanınan kapital alətləri | - | 584 | **584** | **584** |
| Müştərilərə verilmiş kreditlər | - | 12,134 | **12,134** | **12,134** |
| Müştərilərin cari hesabları və depozitləri | - | 173 | **173** | **173** |
| Subordinasiya borc öhdəlikləri | - | 24 | **24** | **24** |
| İmtiyazlı səhmlər | - | 9,621 | **9,621** | **9,621** |
| Banklara və digər maliyyə institutlarına ödəniləcək vəsaitlər | - | 24,109 | **24,109** | **24,109** |
| Digər öhdəliklər | - | 5,072 | **5,072** | **5,072** |

## 29. Maliyyə alətlərinin ədalətli dəyəri (Davamı)

Aşağıdakı cədvəl ədalətli dəyərində ölçülməyən maliyyə alətlərinin ədalətli dəyərinin hər bir ədalətli dəyər ölçülməsinin 31 dekabr 2022-ci il tarixinə təsnifləşdirildiyi ədalətli dəyər iyerarxiyasındakı səviyyə əsasında təhlil edir:

| | 2-ci səviyyə | 3-cü səviyyə | Cəmi ədalətli dəyəri | Cəmi balans dəyəri |
|---|---|---|---|---|
| Pul vəsaitləri və onların ekvivalentləri | 122 | - | **122** | **122** |
| Sair məcmu gəlirlər vasitəsi ilə ədalətli dəyərdə tanınan kapital alətləri | - | 584 | **584** | **584** |
| Müştərilərə verilmiş kreditlər | - | 14,787 | **14,787** | **14,787** |
| Müştərilərin cari hesabları və depozitləri | - | 5 | **5** | **5** |
| Subordinasiya borc öhdəlikləri | - | 24 | **24** | **24** |
| İmtiyazlı səhmlər | - | 9,621 | **9,621** | **9,621** |
| Banklara və digər maliyyə institutlarına ödəniləcək vəsaitlər | - | 27,558 | **27,558** | **27,558** |
| Digər öhdəliklər | - | 4,248 | **4,248** | **4,248** |

### Ədalətli dəyəri müəyyən edərkən istifadə edilən üsullar və ehtimallar

Maliyyə alətlərinin təxmin edilən ədalətli dəyəri Təşkilat tərəfindən mövcud bazar məlumatlarından (əgər mövcud olarsa) və müvafiq qiymətləndirmə metodlarından istifadə etməklə müəyyən edilmişdir. Lakin, təxmin edilən ədalətli dəyərin müəyyən edilməsi üçün bazar məlumatlarını şərh edərkən peşəkar mülahizələr irəli sürmək tələb edilir. Azərbaycan Respublikasında inkişaf etməkdə olan bazar iqtisadiyyatına xas xüsusiyyətlər müşahidə olunmaqdadır, lakin iqtisadi şərait maliyyə bazarlarında aktivliyin həcmini məhdudlaşdırmaqda davam edir. Bazar qiymətləri köhnəlmiş ola bilər və ya aşağı qiymətlərlə satışın dəyərini əks etdirə bilər və bu səbəbdən maliyyə alətlərinin ədalətli dəyərini əks etdirməyə bilər. Maliyyə alətlərinin ədalətli dəyərini müəyyən edərkən Təşkilatın rəhbərliyi bütün mövcud bazar məlumatlarından istifadə edir.

Bazar qiymətləri mövcud olmadıqda, Təşkilat qiymətləndirmə üsullarından istifadə etmişdir. Fəal bazar qiyməti olmayan dəyişkən faizli maliyyə alətlərinin ədalətli dəyəri təxminən onların qalıq dəyərinə bərabərdir. Fəal bazar qiyməti olmayan sabit faizli maliyyə alətlərinin ədalətli dəyəri analoji kredit riskinə və ödəmə müddətinə malik yeni alətlər üçün mövcud faiz dərəcələrini tətbiq etməklə diskont edilmiş gələcək pul vəsaitlərinin hərəkəti metoduna əsaslanır.

## 30. Risklərin idarə edilməsi siyasəti

Təşkilatın fəaliyyəti üçün risklərin idarə olunması Təşkilat əməliyyatlarının mühüm elementini təşkil edir. Təşkilatın əməliyyatlarına təsir göstərəcək əsas risklər aşağıdakılardan ibarətdir: 1) Kredit riski 2) Likvidlik riski 3) Bazar riski

Təşkilat rəhbərliyi anlayır ki, səmərəli və effektiv risk idarəetmə sisteminə malik olmaq vacib şərtdir. Bu məqsədlə, Təşkilat rəhbərliyi risk idarəetmə komitəsi yaratmışdır. Bu qrupun əsas məqsədi Təşkilatı ehtimal edilən risklərə qarşı qorumaq və ona qarşıda qoyulan hədəflərə çatmaq imkanı yaratmaqdır. Risk idarəetmə qrupu vasitəsilə Təşkilat rəhbərliyi, aşağıdakı risklərin idarə olulnmasına nəzarət edir:

### Kredit riski

Bir tərəfin maliyyə aləti üzrə öhdəliklərini yerinə yetirə bilmədiyi zaman və maliyyə zərərləri ilə nəticələnə bilən hallarda Təşkilat kredit riskinə məruz qalır. Kredit riskinə məruz qalma, digər tərəflərə borc vermə və maliyyə aktivlərinin artırılmasına səbəb olan digər əməliyyatlarda iştirak etmənin nəticəsində yaranır.

Təşkilatın problemli kreditlərlə işin təşkili qeyri-qənaətbəxşdir. Təşkilatın balansdankənar hesablarda uçotu aparılan ümidsiz kreditlərin geri qaytarılması ilə bağlı heç bir tədbirlər görülmür və ya bunun haqqında kifayət edəcək sübut təqdim olunmamışdır.

## 30. Risklərin idarə edilməsi siyasəti (Davamı)

Riskin idarə edilməsi və onun monitorinqi müəyyən olunmuş səlahiyyətlər çərçivəsində kredit komitəsi və Təşkilatın İdarə heyəti tərəfindən yerinə yetirilir. Kredit komitəsi tərəfindən hər hansı fəaliyyət həyata keçirməzdən əvvəl kredit prosesləri üzrə bütün tövsiyələr (borcalanların tətbiq edilmiş limitləri və ya kredit müqavilələrinə edilən düzəlişlər və s.) nəzərdən keçirilir və kredit departamentinin mütəxəssisləri tərəfindən təsdiqlənir. Riskin gündəlik idarə edilməsi kredit departamentinin rəhbərliyi tərəfindən həyata keçirilir.

Təşkilat bir borcalan və ya bir qrup borcalanlar ilə bağlı və sənaye seqmentləri üzrə qəbul edilmiş risk məbləğlərinə hədlər qoymaqla üzərinə götürdüyü kredit risklərini səviyyələrə bölür. İdarə heyəti hər borcalan tərəfindən və məhsul üzrə (sənaye sahəsi) yaranan kredit riski dərəcəsi üçün məhdudiyyətləri təsdiq edir. Təşkilatlar və brokerlər də daxil olmaqla hər hansı bir borcalan üzrə təsir kredit komitəsi tərəfindən qoyulan maliyyə vəziyyəti hesabatına və ya ondan kənar təsirləri əhatə edən sub-limitlərlə məhdudlaşdırılır. Məhdudiyyətlər üzrə faktiki təsirin gündəlik monitorinqi aparılır.

Müvafiq hallarda və ümumiyyətlə bir çox kredit ayırmalarında Təşkilat girov və korporativ təminatlar və şəxsi zəmanətlər götürür ki, bunların mühüm hissəsi şəxsi kreditlərdir və onlar üzrə belə şərtlər qəbul edilmir. Belə risklər davamlı şəkildə tənzimlənir və ildə bir dəfə və ya daha tez-tez yoxlanılır.

Kreditin uzadılması üzrə öhdəliklərə müştəri kreditləri, zəmanətlər və ya akkredetiv şəklində öhdəlik götürülmüş ümumi vəsaitlərin istifadə olunmamış hissələri aiddir. Balansdan kənar maliyyə alətlərinin kredit riski qarşı tərəfin öz müqavilənin şərtlərini yerinə yetirə bilməməsindən yaranan zərərlər kimi müəyyən olunur. Kreditin uzadılması öhdəliklərinin kredit riski ilə bağlı Təşkilat ümumi istifadə olunmamış öhdəliklərin məbləği həcmində itkilərə məruz qala bilər. Bununla belə, itkinin təxmini miqdarı ümumi istifadə olunmamış öhdəliklərdən az olur, çünki kreditin uzadılması barədə bir çox öhdəliklər xüsusi kredit standartları şamil edən müştərilərdən asılı olur. Təşkilat şərti öhdəliklərə maliyyə vəziyyəti hesabatının ödəniş dövrünə də nəzarət edir, çünki uzunmüddətli öhdəliklər ümumilikdə qısamüddətli öhdəliklərə nisbətən daha yüksək kredit riski daşıyır.

**Maksimal risk**

Təşkilatın maliyyə vəziyyəti hesabatında maksimal riskə məruz qalma səviyyəsi ümumi olaraq maliyyə vəziyyəti hesabatında maliyyə aktivlərinin qalıq dəyərində göstərilir. Aktiv və öhdəliklərin mümkün qarşılıqlı hesablanılmasının potensial kredit riskinə məruz qalmasına təsiri əhəmiyyətli deyil.

Balansdan kənar bəndlər üzrə maksimal kredit riski, zəmanətlər şərti öhdəliklərin ümumi məbləğini təşkil edir. Təşkilatın balansdan kənar bəndlər üzrə maksimal kredit riski 27 saylı Qeyddə "Təəhhüdlər və şərti öhdəliklər" əks etdirilmişdir.

Balansdan kənar maliyyə alətləri üçün kredit riski digər tərəfin müqavilə şərtlərinə müvafiq olaraq öhdəliklərini yerinə yetirə bilmədiyi zaman və maliyyə zərərləri ilə nəticələnə bilən risk kimi təyin edilir. Şərti öhdəlikləri, kreditlərin təsdiqi, riskin idarəetmə limitləri və monitorinq prosedurlarını təyin etdikdə Təşkilat maliyyə vəziyyəti hesabatında təqdim edilmiş alətlər üçün istifadə etdiyi kredit prinsiplərini tətbiq edir.

Aşağıdakı cədvəl maliyyə aktivlərinin kredit risklərinə məruz qalmasının maksimal həddini təqdim edir. Maliyyə aktivləri üçün bu məbləğ qarşılaşdırmalar və mövcud girovlar çıxıldıqdan sonra aktivlərin qalıq dəyərinə bərabərdir. Maliyyə zəmanətləri və digər şərti təahhüdlər üçün kredit riskinə məruz qalmanın maksimum həddi Təşkilatın bu zəmanətlər üzrə üçüncü şəxslərə ödənilməli olan mütləq məbləğlər, kredit öhdəliklərində isə müştəri tərəfindən tələb edilən vəsaitlərin məbləği kimi təyin edilir.

| | 31 dekabr 2023-cü il | 31 dekabr 2022-ci il |
|---|---|---|
| Pul vəsaitləri və onların ekvivalentləri | 64 | 122 |
| Müştərilərə verilmiş kreditlər | 12,134 | 14,787 |
| Digər maliyyə aktivləri | - | - |
| **Cəmi maksimal risk** | **12,198** | **14,909** |

## 30. Risklərin idarə edilməsi siyasəti (Davamı)

### Coğrafi konsentrasiya

Rəhbərlik həmçinin qanunvericilik və tənzimləmə sahəsindəki risklərin idarə edilməsinə və bu risklərin Təşkilatın fəaliyyətinə təsirinə nəzarət edir. Bu nəzarət mexanizmi Təşkilata Azərbaycan Respublikasındakı investisiya mühitinin dəyişməsindən yaranan ehtimal edilən zərərləri minimal həddə salmağa şərait yaradır.

### Likvidlik riski

Likvidlik riski əmanətlərin geri götürülməsi və ödəmə müddəti çatmış digər maliyyə alətləri ilə əlaqədar maliyyə öhdəliklərini ödəmək üçün vəsaitlərin kifayət etməməsi riskidir.

Aktivlərin və Öhdəliklərin İdarə olunması Komitəsi ("AÖİK") belə riskləri ödəmə tarixi təhlillərinin vasitəsilə, Təşkilatın gələcək dövr üzrə strategiyasını təyin edərək idarə edir. Cari likvidlik, AÖİK tərəfindən cari likvidlik təminatı və pul vəsaitlərinin hərəkətinin optimizasiyası üzrə pul bazarı ilə əməkdaşlıq etmək vasitəsilə idarə olunur.

Likvidlik riskini idarə etmək məqsədilə Təşkilat müştəri və Təşkilat əməliyyatları üzrə pul vəsaitləri hərəkətinin, aktiv/öhdəliklərin idarə olunması prosesinin bir hissəsi kimi, gündəlik likvidlik mövqeyinin monitorinqini keçirir. Rəhbərlik depozitlərin geri götürülməsi üçün hazır vəsaitlərinin minimal nisbətinə və gözlənilməyən məbləğlərdə geri götürmələri ödəmək üçün Təşkilatlararası və digər institutlardan alınan kreditlərin minimal səviyyəsinə hədlər qoyur.

Aşağıdakı cədvəllərdə likvidlik və faiz dərəcələri risklərinin təhlili təqdim edilmişdir. Cədvəllər aşağıdakı məqamları əks etdirir:

(i) Qeyri-derivativ maliyyə öhdəlikləri üzrə müqaviləyə əsasən başaçatma müddətinə uyğun diskont edilməmiş nağd vəsaitlərin hərəkətini (həm əsas borc həm də faizlər) nəzərə almaqla qalan günlərin sayına uyğun Təşkilatın bu öhdəliyi ödəməli olduğu ən tez tarix istifadə edilmiş; və

(ii) Qeyri-derivativ maliyyə aktivləri üzrə diskont edilməmiş nağd vəsaitlərin hərəkətini və bu aktivlər üzrə qazanılacaq faiz məbləğlərini də nəzərə almaqla (Təşkilatın pul hərəkətlərinin başqa tarixdə baş verəcəyini əvvəlcədən bildiyi hallar istisna olmaqla) hesablanmışdır.

## 30. Risklərin idarə edilməsi siyasəti (Davamı)

Aşağıdakı cədvəldə 31 dekabr 2023-cü il tarixinə maliyyə vəziyyəti haqqında hesabatda əks edilmiş məbləğlərin ödəniş müddətləri üzrə təhlili təqdim olunur:

| | Tələb olunanadək və 1 aydan az | 1 aydan 3 ayadək | 3 aydan 12 ayadək | 1 ildən 5 ilədək | 5 ildən çox | Ödəniş müddəti olmayan | Vaxtı keçmiş | Cəmi |
|---|---|---|---|---|---|---|---|---|
| Pul vəsaitləri və onların ekvivalentləri | 64 | - | - | - | - | - | - | 64 |
| Sair məcmu gəlirlər vasitəsi ilə ədalətli dəyərdə tanınan kapital alətləri | - | - | - | - | - | - | - | - |
| Müştərilərə verilmiş kreditlər | - | 50 | 929 | 3,855 | - | - | 7,301 | 12,134 |
| **Cəmi aktivlər** | **64** | **50** | **929** | **3,855** | **-** | **-** | **7,301** | **12,199** |
| Müştərilərin cari hesabları və depozitləri | (173) | - | - | - | - | - | - | **(173)** |
| Subordinasiya borc öhdəliklər | (7) | (12) | (3) | (2) | - | - | - | **(24)** |
| İmtiyazlı səhmlər | - | - | - | - | - | (9,621) | - | **(9,621)** |
| Banklara və digər maliyyə institutlarına ödəniləcək vəsaitlər | (4,567) | (3,479) | (1,984) | (14,079) | - | - | - | **(24,109)** |
| Digər maliyyə öhdəlikləri | (319) | - | (4,753) | - | - | - | - | **(5,072)** |
| **Cəmi öhdəliklər** | **(5,066)** | **(3,491)** | **(6,740)** | **(14,081)** | **-** | **(9,621)** | **-** | **(38,999)** |
| **Xalis vəziyyət** | **(5,002)** | **(3,441)** | **(5,812)** | **(10,226)** | **-** | **(9,621)** | **7,301** | **(26,800)** |
| **Yığılmış likvidlik aralığı** | **(5,002)** | **(8,442)** | **(14,254)** | **(24,480)** | **(24,480)** | **(34,101)** | **(26,800)** | |

## 30. Risklərin idarə edilməsi siyasəti (Davamı)

Aşağıdakı cədvəldə 31 dekabr 2022-ci il tarixinə maliyyə vəziyyəti haqqında hesabatda əks edilmiş məbləğlərin ödəniş müddətləri üzrə təhlili təqdim olunur:

| | Tələb olunanadək və 1 aydan az | 1 aydan 3 ayadək | 3 aydan 12 ayadək | 1 ildən 5 ilədək | 5 ildən çox | Ödəniş müddəti olmayan | Vaxtı keçmiş | Cəmi |
|---|---|---|---|---|---|---|---|---|
| Pul vəsaitləri və onların ekvivalentləri | 122 | | | | | | | 122 |
| Sair məcmu gəlirlər vasitəsi ilə ədalətli dəyərdə tanınan kapital alətləri | | | | | | 584 | | 584 |
| Müştərilərə verilmiş kreditlər | 1,156 | 654 | 1,985 | 3,561 | 34 | | 7,397 | 14,787 |
| **Cəmi aktivlər** | **1,278** | **654** | **1,985** | **3,561** | **34** | **584** | **7,397** | **15,492** |
| Müştərilərin cari hesabları və depozitləri | (5) | - | - | - | - | - | - | (5) |
| Subordinasiya borc öhdəliklər | (7) | (12) | (3) | (2) | - | - | - | (24) |
| İmtiyazlı səhmlər | - | - | - | - | - | (9,621) | - | (9,621) |
| Banklara və digər maliyyə institutlarına ödəniləcək vəsaitlər | (5,342) | (4,978) | (2,453) | (14,785) | - | - | - | (27,558) |
| Digər maliyyə öhdəlikləri | (423) | - | (3,825) | - | - | - | - | (4,248) |
| **Cəmi öhdəliklər** | **(5,777)** | **(4,990)** | **(6,281)** | **(14,787)** | **-** | **(9,621)** | **-** | **(41,456)** |
| **Xalis vəziyyət** | **(4,499)** | **(4,336)** | **(4,296)** | **(11,226)** | **34** | **(9,037)** | **7,397** | **(25,963)** |
| **Yığılmış likvidlik aralığı** | **(4,499)** | **(8,835)** | **(13,131)** | **(24,357)** | **(24,323)** | **(33,360)** | **(25,963)** | |

## 30. Risklərin idarə edilməsi siyasəti (Davamı)

Təşkilatın faiz gəliri yaradan aktivlərinin və faiz xərci yaradan öhdəliklərinin əksər hissəsi müəyyən faiz dərəcəsini daşıyır.

Aktiv və öhdəliklərin ödəniş müddətləri, həmçinin faiz hesablanan öhdəliklərini ödəniş vaxtı çatdıqda qəbul edilən dəyərdə dəyişdirilməsi imkanları Təşkilatın likvidliyinin, eləcə də faiz dərəcələrinin və valyuta məzənnəsinin dəyişkənliyinə nə dərəcədə həssas olmasının müəyyən edilməsində mühüm əhəmiyyət daşıyır.

Likvidlik və faiz dərəcəsi üzrə təhlillər MHBS 7 standartına müvafiq olaraq aşağıda göstərilən cədvəllərdə təqdim edilmişdir. Bu cədvəllərdə əks edilən məbləğlər maliyyə vəziyyəti hesabatında əks etdirilən məbləğlərlə uyğun deyil, ona görə ki, aşağıdakı təqdimat maliyyə öhdəliklərinin maliyyə vəziyyəti hesabatında effektiv faiz üsulu əsasında təqdim edilmiş ümumi müqavilə üzrə qalıq ödənişlərini (faizlərin ödənişi daxil olmaqla) əks etdirən ödəniş müddətlərinin təhlillərini əhatə edir.

31 dekabr 2023-cü il və 31 dekabr 2022-ci il tarixlərinə maliyyə öhdəliklərinin ödəniş müddəti üzrə təhlili aşağıda göstərilən kimi olmuşdur:

| 31 dekabr 2023-cü il | Tələb olunanadək və 1 aydan az | 1 aydan 3 ayadək | 3 aydan 12 ayadək | 1 ildən 5 ilədək | Ödəniş müddəti olmayan | Vaxtı keçmiş | Balans dəyəri |
|---|---|---|---|---|---|---|---|
| Müştərilərin cari hesabları və depozitləri | (173) | - | - | - | - | - | (173) |
| Subordinasiya borc öhdəliklər | (7) | (12) | (3) | (2) | - | - | (24) |
| İmtiyazlı səhmlər | - | - | - | - | - | (9,621) | (9,621) |
| Banklara və digər maliyyə institutlarına ödəniləcək vəsaitlər | (4,567) | (3,479) | (1,984) | (14,079) | - | - | (24,109) |
| Digər maliyyə öhdəlikləri | (319) | - | (4,753) | - | - | - | (5,072) |
| **Cəmi öhdəliklər** | **(5,066)** | **(3,491)** | **(6,740)** | **(14,081)** | **-** | **(9,621)** | **(38,999)** |

| 31 dekabr 2022-ci il | Tələb olunanadək və 1 aydan az | 1 aydan 3 ayadək | 3 aydan 12 ayadək | 1 ildən 5 ilədək | Ödəniş müddəti olmayan | Vaxtı keçmiş | Balans dəyəri |
|---|---|---|---|---|---|---|---|
| Müştərilərin cari hesabları və depozitləri | (5) | - | - | - | - | - | (5) |
| Subordinasiya borc öhdəlikləri | (7) | (12) | (3) | (2) | - | - | (24) |
| İmtiyazlı səhmlər | - | - | - | - | - | (9,621) | (9,621) |
| Banklara və digər maliyyə institutlarına ödəniləcək vəsaitlər | (5,342) | (4,978) | (2,453) | (14,785) | - | - | (27,558) |
| Digər maliyyə öhdəlikləri | (423) | - | (3,825) | - | - | - | (4,248) |
| **Cəmi maliyyə öhdəlikləri** | **(5,777)** | **(4,990)** | **(6,281)** | **(14,787)** | **-** | **(9,621)** | **(41,456)** |

## 30. Risklərin idarə edilməsi siyasəti (Davamı)

### Bazar riski

Bazar riskinə, faiz dərəcəsində, xarici valyuta məzənnələrində və qiymətləndirmədəki dəyişmələrdən yaranan və Təşkilatın məruz qaldığı bənzəri risklər aiddir. 2023-cü və 2022-ci illərdə bu risklərin Təşkilat tərəfindən qiymətləndirilməsində və Təşkilatın məruz qaldığı bazar risklərində əhəmiyyətli dəyişikliklər olmamışdır.
AÖİK, Təşkilatı müsbət faiz marjası ilə təmin edən faiz dərəcəsi mövqeyinə uyğunlaşdıraraq faiz riskini və bazar riskini idarə edir. AÖİK eləcə də Təşkilatın cari maliyyə təqdimatının monitorinqini keçirir, Təşkilatın faiz dərəcəsinin dəyişdirilməsinə dair həssaslığını və onun Təşkilat mənfəətinə təsirini təxmin edir.
Təşkilatın kredit sazişlərinin və digər maliyyə aktivlərinin əksəriyyəti sabit faiz dərəcəsi daşıyır. Təşkilat faiz dərəcəsi marjasının monitorinqini keçirir və bu səbəbdən zəruri faiz dərəcəsi riskinə və ya əhəmiyyətli pul vəsaitlərini axımına məruz qalmadığını hesab edir.

### Faiz dərəcəsi riski

Təşkilat faiz dərəcəsinin ədalətli dəyəri riskini bazar şəraitində mənfi dəyişmələr nəticəsində yarana bilən potensial zərərlərin mütəmadi təxminlərini edir. İdarə Heyəti, Təşkilatın cari maliyyə fəaliyyətinin monitorinqini keçirir, Təşkilatın faiz dərəcəsinin dəyişdirilməsinə dair həssaslığını və bunun Təşkilat mənfəətinə təsirini təxmin edir.
Aşağıdakı cədvəldə əsas maliyyə alətləri üzrə faiz dərəcələri arasında fərqlər təqdim olunur:

| 31 dekabr 2023-cü il | Tələb olunanadək və 1 aydan az | 1 aydan 3 ayadək | 3 aydan 12 ayadək | 1 ildən 5 ilədək | 5 ildən çox | Ödəniş müddəti olmayan | Vaxtı keçmiş | Faizsiz | Balans dəyəri |
|---|---|---|---|---|---|---|---|---|---|
| **AKTİVLƏR** | | | | | | | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | - | - | - | - | - | - | - | 64 | 64 |
| Digər məcmu gəlirlər vasitəsi ilə ədalətli dəyərdə tanınan kapital alətləri | - | - | - | - | - | - | - | - | - |
| Müştərilərə verilmiş kreditlər | - | 50 | 929 | 3,855 | - | - | 7,301 | - | 12,134 |
| **Cəmi aktivlər** | **64** | **50** | **929** | **3,855** | **-** | **-** | **7,301** | **64** | **12,199** |
| **ÖHDƏLİKLƏR** | | | | | | | | | |
| Müştərilərin cari hesabları və depozitləri | (173) | - | - | - | - | - | - | - | (173) |
| Subordinasiya borc öhdəlikləri | (7) | (12) | (3) | (2) | - | - | - | - | (24) |
| İmtiyazlı səhmlər | - | - | - | - | - | (9,621) | - | - | (9,621) |
| Banklara və digər maliyyə institutlarına ödəniləcək vəsaitlər | (4,567) | (3,479) | (1,984) | (14,079) | - | - | - | - | (24,109) |
| Digər öhdəliklər | (319) | - | (4,753) | - | - | - | - | - | (5,072) |
| **Cəmi öhdəliklər** | **(5,066)** | **(3,491)** | **(6,740)** | **(14,081)** | **-** | **(9,621)** | **-** | **-** | **(38,999)** |
| **Xalis vəziyyət** | **(5,066)** | **(3,441)** | **(5,812)** | **(10,226)** | **-** | **(9,621)** | **7,301** | **64** | **(26,800)** |

**30. Risklərin idarə edilməsi siyasəti (Davamı)**

| 31 dekabr 2022-ci il | Tələb olunanadək və 1 aydan az | 1 aydan 3 ayadək | 3 aydan 12 ayadək | 1 ildən 5 ilədək | 5 ildən çox | Ödəniş müddəti olmayan | Vaxtı keçmiş | Faizsiz | Balans dəyəri |
|---|---|---|---|---|---|---|---|---|---|
| **AKTİVLƏR** | | | | | | | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | - | - | - | - | - | - | - | 122 | **122** |
| Digər məcmu gəlirlər vasitəsi ilə ədalətli dəyərdə tanınan kapital alətləri | - | - | - | - | - | - | - | 584 | **584** |
| Müştərilərə verilmiş kreditlər | 1,156 | 654 | 1,985 | 3,561 | 34 | - | 7,397 | - | **14,787** |
| **Cəmi aktivlər** | **1,156** | **654** | **1,985** | **3,561** | **34** | **-** | **7,397** | **706** | **15,493** |
| **ÖHDƏLİKLƏR** | | | | | | | | | |
| Müştərilərin cari hesabları və depozitləri | (5) | - | - | - | - | - | - | - | **(5)** |
| Subordinasiya borc öhdəlikləri | (7) | (12) | (3) | (2) | - | - | - | - | **(24)** |
| İmtiyazlı səhmlər | - | - | - | - | - | (9,621) | - | - | **(9,621)** |
| Banklara və digər maliyyə institutlarına ödəniləcək vəsaitlər | (5,342) | (4,978) | (2,453) | (14,785) | - | - | - | - | **(27,558)** |
| Digər öhdəliklər | (423) | - | (3,825) | - | - | - | - | - | **(4,248)** |
| **Cəmi öhdəliklər** | **(5,777)** | **(4,990)** | **(6,281)** | **(14,787)** | **-** | **(9,621)** | **-** | **-** | **(41,456)** |
| **Xalis vəziyyət** | **(4,621)** | **(4,336)** | **(4,296)** | **(11,226)** | **34** | **(9,621)** | **7,397** | **706** | **(25,693)** |

## 30. Risklərin idarə edilməsi siyasəti (Davamı)

### Orta effektiv faiz dərəcələri

Aşağıdakı cədvəldə 31 dekabr 2023-cü il və 2022-ci il tarixlərinə faiz qazanan aktivlər və öhdəliklər üzrə orta effektiv faiz dərəcələri təqdim olunur. Bu faiz dərəcələri gəlirlilik səviyyələrinin həmin aktivlərin və öhdəliklərin ödəniş müddətinə nisbətin təxminidir.

| | 2023-cü il Orta effektiv faiz dərəcəsi, % | | | 2022-ci il Orta effektiv faiz dərəcəsi,% | | |
|---|---|---|---|---|---|---|
| | AZN | ABŞ Dolları | Digər valyutalar | AZN | ABŞ Dolları | Digər valyutalar |
| **Faiz qazanan aktivlər** | | | | | | |
| Müştərilərə verilmiş kreditlər | 15.2 | 31.2 | 25.1 | 15.2 | 31.2 | 25.09 |
| **Faiz qazanan öhdəliklər** | | | | | | |
| Subordinasiya borc öhdəlikləri | 16 | - | - | 16.00 | - | - |
| İmtiyazlı səhmlər | 12 | - | - | 12.00 | - | - |
| Banklara və digər maliyyə institutlarına ödəniləcək vəsaitlər | 1.05 | - | - | 1.05 | - | - |

### Xarici valyuta riski

Məzənnə fərqlərindən asılı olaraq maliyyə alətinin dəyərindəki dəyişmələr xarici valyuta riski adlanır. Təşkilatın maliyyə vəziyyəti və pul vəsaitlərinin hərəkəti mövcud valyuta məzənnələrinin dəyişməsi zamanı belə risklərin təsirinə məruz qalır.

İdarə Heyəti valyuta məzənnələrinə həddlər qoyur, və bu Təşkilata milli valyutanın xarici valyutaya məzənnəsinə qarşı dəyişmələr nəticəsində zərərlərin azaldılmasına imkan yaradır. ARMB-ın minimal tələblərinə cavab vermək məqsədilə AÖİK Təşkilatın açıq valyuta mövqeyinin gündəlik monitorinqini keçirir. Bu məhdudiyyətlər eləcə də ARMB-nın tələblərinə uyğunlaşdırılmışdır.

Təşkilatın xarici valyuta məzənnələrinin dəyişməsi zamanı məruz qalacağı risklər aşağıdakı cədvəldə təqdim edilmişdir:

| 31 dekabr 2023-cü il | AZN | ABŞ Dolları | AVRO | Cəmi |
|---|---|---|---|---|
| **AKTİVLƏR** | | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 44 | 20 | - | **64** |
| Digər məcmu gəlirlər vasitəsi ilə ədalətli dəyərdə tanınan kapital alətləri | 584 | - | - | **584** |
| Müştərilərə verilmiş kreditlər | 7,219 | 4,916 | - | **12,135** |
| **Cəmi aktivlər** | **7,847** | **4,936** | **-** | **12,783** |
| **ÖHDƏLİKLƏR** | | | | |
| Müştərilərin cari hesabları və depozitləri | (173) | - | - | **(173)** |
| Subordinasiya borc öhdəlikləri | (24) | - | - | **(24)** |
| İmtiyazlı səhmlər | (9,621) | - | - | **(9,621)** |
| Banklara və digər maliyyə institutlarına ödəniləcək vəsaitlər | (24,109) | - | - | **(24,109)** |
| Digər maliyyə öhdəlikləri | (5,066) | (6) | - | **(5,072)** |
| **Cəmi öhdəliklər** | **(38,993)** | **(6)** | **-** | **(38,999)** |
| **Xalis vəziyyət** | **(31,146)** | **4,931** | **-** | **(26,215)** |

**30. Risklərin idarə edilməsi siyasəti (Davamı)**

| 31 dekabr 2022-ci il | AZN | ABŞ Dolları | AVRO | Cəmi |
|---|---|---|---|---|
| **AKTİVLƏR** | | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 95 | 27 | - | **122** |
| Digər məcmu gəlirlər vasitəsi ilə ədalətli dəyərdə tanınan kapital alətləri | 584 | - | - | **500** |
| Müştərilərə verilmiş kreditlər | 8,763 | 5,979 | 45 | **14,787** |
| **Cəmi aktivlər** | **9,442** | **6,006** | **45** | **15,493** |
| **ÖHDƏLİKLƏR** | | | | |
| Müştərilərin cari hesabları və depozitləri | (5) | - | - | **(5)** |
| Subordinasiya borc öhdəlikləri | (24) | - | - | **(24)** |
| İmtiyazlı səhmlər | (9,621) | - | - | **(9,621)** |
| Banklara və digər maliyyə institutlarına ödəniləcək vəsaitlər | (27,558) | - | - | **(27,558)** |
| Digər maliyyə öhdəlikləri | (4,248) | - | - | **(4,248)** |
| **Cəmi öhdəliklər** | **(41,456)** | **-** | **-** | **(41,456)** |
| **Xalis vəziyyət** | **(32,014)** | **6,006** | **45** | **(25,693)** |

**Xarici valyuta riskinə həssaslıq**

Aşağıdakı cədvəl Təşkilatın ABŞ dollarının və Avronun Azərbaycan manatına nisbətən məzənnəsində 10 faizlik artım və ya azalmasına həssaslığını təhlil edir. 10 faiz rəhbərlik tərəfindən xarici valyuta risklərini təhlil edərkən daxili risk hesabatlarında xarici valyuta məzənnəsinin dəyişməsinin Təşkilata təsirini təhlil edərkən istifadə olunur. Həssaslıq analizi xarici valyutada olan monetar aktiv və öhdəliklərin hesabat tarixinə qalıq dəyərindən istifadə edir və bu dəyəri məzənnədəki 10%-lik dəyişiklik üçün uyğunlaşdırır. Əgər xarici ölkələrə verilmiş kreditlər və xaricdəki əməliyyatlar üzrə verilmiş kreditlər borc verənin və ya borc alanın valyutasında deyilsə bu məbləğlər də həssaslıq təhlilinə daxil edilir.

| | 31 dekabr 2023-cü il tarixinə | | 31 dekabr 2022-ci il tarixinə | |
|---|---|---|---|---|
| | AZN/ABŞ dolları +10% | AZN/ABŞ dolları -10% | AZN/ABŞ dolları +10% | AZN/ABŞ dolları -10% |
| Mənfəət vergisindən əvvəl (zərərə)/gəlirə xalis təsir | 493 | (493) | 600 | (600) |

| | 31 dekabr 2023-cü il tarixinə | | 31 dekabr 2022-ci il tarixinə | |
|---|---|---|---|---|
| | AZN/AVRO +10% | AZN/AVRO -10% | AZN/AVRO +10% | AZN/AVRO -10% |
| Mənfəət vergisindən əvvəl (zərərə)/gəlirə xalis təsir | - | - | 4 | 4 |

## 30. Risklərin idarə edilməsi siyasəti (Davamı)

### Qiymət Riski

Qiymət riski bazar qiymətlərinin dəyişməsi nəticəsində, bu dəyişikliklərin konkret qiymətli kağıza və ya onu yerləşdirən tərəfə məxsus amillərdən və ya bazarda alınıb-satılan bütün qiymətli kağızlara təsir göstərən amillərdən asılı olaraq, maliyyə alətinin dəyərinin dəyişməsi ilə əlaqədar riskdir. Təşkilat ümumi və ya xüsusi bazar dəyişmələrindən yaranan qiymət risklərinə məruz qalır.

### Həssaslıq analizinin məhdudiyyətləri

Yuxarıda göstərilən cədvəllərdə qeyd olunan təsirlər yalnız bir təxminin dəyişməsini və bu zaman digər təxminlərin sabit qaldığını nəzərdə tutur. Reallıqda isə, təxminlər və digər faktorlar arasında korrelyasiya mövcuddur. O da qeyd edilməlidir ki, bu həssaslıq münasibətləri xətti şəkildə deyil, və bu nəticələri daha böyük və ya daha kiçik təsirləri ölçmək üçün interpolyasiya və ya ekstrapolyasiya etmək olmaz.

Həmçinin, həssaslıq təhlilində Təşkilatın aktiv və öhdəliklərini mütəmadi olaraq idarə etməsi nəzərə alınmır. Əlavə olaraq, Təşkilatın maliyyə vəziyyəti istənilən zaman faktiki bazar dəyişmələrinin nəticəsində dəyişə bilər. Məsələn, Təşkilatın maliyyə risklərinin idarə olunması strategiyası, bazardakı dəyişikliklərdən yaranan risklərə qarşı Təşkilatı qorumağı qarşısına məqsəd qoyur. İnvestisiya bazarlarında müşayiət edilən düşmələr zamanı qiymətlər müəyyən həddin altına düşdükdə, rəhbərlik investisiyaların satılmasına, investisiya portfelinin strukturunun dəyişdirilməsinə qərar verə bilər və ya digər qoruyucu qərarlar qəbul edə bilər. Nəticədə, aktivlər balansda bazar dəyəri ilə göstərildiyinə görə, təxminlərdə baş verən dəyişikliklər öhdəliklərə faktiki təsir göstərməyə bilər. Bu kimi hallarda, öhdəlik və aktivlərin ölçülməsində istifadə edilən müxtəlif üsullar kapitalda böyük dəyişikliklər yarada bilər.

Yuxarıda göstərilən həssaslıq təhlilinin digər məhdudiyyətlərindən biri Təşkilatın təxminlərinə görə ehtimal edilən riskləri təqdim etmək məqsədilə yalnız qısa müddətdə bazar dəyişmələri ilə əlaqədar proqnozlaşdırılması çətin olan fərziyyələrdən istifadə etməsidir; bu zaman təxmin edilir ki, bütün faiz dərəcələri eyni qaydada və istiqamətdə dəyişir.

### Digər risklər

Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 91-4.1-ci maddəsini tələbləri gözlənilməmişdir. Belə ki, qeyd olunan maddənin tələblərinə əsasən ictimai əhəmiyyətli qurumlarda Audit Komitəsi yaradılmalıdır. Lakin, Təşkilatda Audit Komitəsi fəaliyyət göstərmir. Təşkilatın təşkilatı strukturunda Daxili audit departamenti nəzərdə tutulsa da, faktiki olaraq fəaliyyət göstərmir. Təşkilat tərəfindən yoxlama qrupuna daxili audit yoxlamaları ilə bağlı hesabatlar və iş planı təqdim olunmamışdır.

## 31. Kapitalın idarə edilməsi

ARMB-nin kapitalın məbləği ilə bağlı mövcud tələblərinə görə bank olmayan kredit təşkilatları qanunla müəyyən edilmiş məcmu minimum kapital məbləğini 300 min AZN (31 dekabr 2022-ci il: 300 min AZN) həcmində saxlamalıdır.

Aşağıdakı cədvəldə 31 dekabr tarixinə ARMB-nin tələblərinə uyğun olaraq hesablanmış kapital mövqeyinin tərkibi təqdim olunur:

| **Kapital** | **2023-cü il** | **2022-ci il** |
|---|---|---|
| Nizamnamə kapitalı | 29,266 | 29,266 |
| Tikililərin yenidən qiymətləndirilməsi | 3,845 | 3,845 |
| Yığılmış zərər | (51,047) | (50,005) |
| **Cəmi kapital** | **(17,935)** | **(16,893)** |

## 31. Kapitalin idarə edilməsi (Davamı)

Risk dərəcəsi üzrə ölçülmüş aktivlər hər bir aktiv və kontragentlə bağlı kredit, bazar və digər risklərin xarakterinə uyğun olaraq təsnifləşdirilmiş və onların hesablanmasını əks edən risk dərəcələri sisteminə əsasən qiymətləndirilmişdir. Bu zaman müvafiq girov və ya zəmanətlər nəzərə alınır. Eyni prosedur, potensial itkilərin gözlənilməyən xarakterini əks etmək üçün qəbul edilən bəzi düzəlişlərlə, uçota alınmamış müqavilə öhdəliklərinə də tətbiq olunur.

Kapitalın idarə olunmasında Təşkilatın məqsədi ARMB-nin kapitalın məbləği ilə bağlı müəyyən etdiyi tələblərə riayət edilməsini, Təşkilatın fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin və kapitalın adekvatlıq əmsalının 300 min AZN həcmində saxlanılması üçün kifayət qədər kapital bazasının saxlanılmasını təmin etməkdir.

2023-cü və 2022-ci illər ərzində yerli qanunvericiliyə uyğun hesablanmış kapitalın adekvatlığı əmsalı pozulmuşdur. Bu da öz növbəsində Təşkilatın fəaliyyətinin fasiləsizliyinə ciddi təsir edə biləcək amillərdən biridir.

## 32. Hesabat dövründən sonrakı hadisələr

Hesabat tarixindən sonrakı dövr ərzində Cəmiyyətdə hər hansı əhəmiyyətli dəyişiklik baş verməmişdir.